


Milli azadlıqdan
şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 noyabr
2026-cı il,
şənbə
№ 205 (7272)
Qiyməti
60 qəpik



Bax səh. 5

ZƏFƏR ayının QƏLƏBƏ müjdələri!

6 yaşlı Zəfərimiz!

Bax səh. 3

Prezident və Birinci xanım Cəbrayıl və Zəngilanda...

Bax səh. 2



Zəfərimizin yolu...

8 Noyabr xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan müqəddəs gündür. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala 44 gündə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan qalib ölkəyə, Azərbaycan xalqı qalib xalqa çevrildi. Bu möhtəşəm Qələbə, eyni zamanda, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi.

Şanlı zəfərimizin simvollarından biri də "Zəfər yolu"dur. 44 günlük müharibədə qəhrəman döyüşçülərimizin Şuşaya doğru dağların, meşələrin qoynu ilə irəliləyərək açdığı cığır boyu avtomobil yolu salınıb. Prezident İlham Əliyev Şuşaya 101 kilometr uzunluğu olan bu yolu "Zəfər yolu" adlandırıb. Belə ki, Vətən müharibəsinin başa çatmasından dərhal sonra ölkə rəhbərliyinin azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün verdiyi tapşırıqlardan biri də Şuşa şəhərinə yeni avtomobil yolunun çəkilməsi oldu. Təməli qoyulan ilk layihə isə bu yol idi...

Bax səh. 4

Əziz Şuşa, sən azadsan!

Azərbaycan dövləti və xalqı üçün 8 noyabr xüsusi bir gündür. Tarixin bu günündə - 2020-ci il noyabrın 8-də Şuşa təxminən otuz illik işğaldan sonra azadlığına qovuşub.

Uca dağlar başında qərar tutan Şuşa bizim üçün yalnız bir şəhər, yaşayış məskəni kimi əhəmiyyət daşımır. Hər bir azərbaycanlı onu həm də mənəviyyat simvolu kimi qəbul edərək qəlbində yaşadır. Əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa Qarabağın tacıdır. Lakin bu şəhərin əvəzsiz dəyəri yalnız onun coğrafi yerləşməsində, təbii gözəlliyində deyil. Şuşa tarixən Azərbaycan şəhəri kimi inkişaf edib və burada onilliklər boyunca zəngin mədəniyyətimizin çox gözəl nümunələri yaranıb. Ölkəmizi bütün dünyada tanıdan muğam ustadlarının, xanəndələrin sıraları kifayət qədər geniş olan pleyadası məhz Şuşanın yetirməsidir. Buna görə də 1992-ci il mayın 8-də işğal altına düşən əziz Şuşanın 6 il bundan əvvəl igid hərbçilərimizin...

Bax səh. 4

YAP nümayəndə heyəti ICAPP-ın 13-cü Baş Assambleyasında iştirak edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadədən ibarət nümayəndə heyəti 5-6 noyabr tarixlərində Koreya Respublikasının "Mincu" (Demokratik) Partiyası və Xalqın Gücü Partiyasının birgə ev sahibliyi ilə Seul şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 13-cü Baş Assambleyasında (BA) iştirak edib.

"Dəyişən dünyada etimadın bərpası" mövzusuna həsr olunmuş və 36 ölkədən 83 siyasi...

Bax səh. 5

Tarix yazan Azərbaycan Ordusu...

Dünya minilliklər boyu saysız, hesabsız müharibələr görüb, döyüşlərə şahid olub. Bu döyüşlərin arasında asanı da olub, çətini də. Hətta mümkünsüzü də olub - 30 il davam edən Qarabağ həsrətinin, Qarabağ nisgilinin Zəfər marşının çalındığı Şuşa döyüşləri kimi mümkünsüz sayılan döyüş. Tarix yazan Azərbaycan Ordusu Şuşada mümkünsüzü mümkün etdi...

2020-ci ilin sentyabırn 27-dən başlanan müqəddəs Zəfər yolunun ən çətin və ən şanlı dyanacağına gəlib çatmışdıq. Tarix noyabrın 4-nü göstərirdi. Şuşa və ətrafındakı dağlıq ərazi Qarabağın ən strateji əhəmiyyətli yerlərindən biri idi. Buranı Qarabağın "döyünən ürəyi" də adlandırırdılar.

Cəbrayıl şəhərindən irəliləyən Azərbaycan Ordusu Hadrut qəsəbəsini işğaldan azad etdikdən sonra şimala doğru irəliləyərək meşələri və dağ keçidlərini aşıb, Şuşa ərazisinə daxil olmuşdular. Şəhər ətrafında lokal döyüşlər oktyabrın 29-dan...

Bax səh. 6

Şuşada tamamlanan həsrət...

Vətənpərvərlik bəzən bir əsgərin səngərdə dayanan cəsarətində, bəzən bir ananın övladını Vətənə əmanət etməsində, bəzən də minlərlə insanın eyni amal ətrafında bir yumruq kimi birləşməsində özünü göstərir. 2020-ci ilin payızında Azərbaycan xalqı bu hissin nə qədər böyük gücə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. 44 gün ərzində cəbhədə döyüşən əsgərlə arxa cəbhədə onun qələbəsinə inanan vətəndaş arasında görünməz, lakin qırılmaz bir bağ var idi. Hər kəsin ürəyində eyni arzu, dilində eyni dua, düşüncəsində eyni məqsəd yaşayırdı: torpaqlarımız azad olunsun, üçrəngli bayrağımız doğma yurdlarımızda dalğalansın!

Elə tarixlər var ki, onlar sadəcə təqvimdəki günlər deyil, xalqın yaddaşına qürurla həkk olunan, nəsildən-nəslə ötürülən böyük qələbələrin rəmzinə çevrilir. 8 Noyabr - Zəfər Günü də Azərbaycan üçün məhz belə bir tarixdir. Bu gün xalqımızın qürurunun, ordumuzun...

Bax səh. 7

Prezident və Birinci xanım Cəbrayıl və Zəngilanda...

Cəbrayıl rayonunda alkoqolsuz içki istehsalı müəssisəsinin açılışında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunda "Sunbeverage" MMC-nin alkoqolsuz içki istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Azərsun Holdinq"in müşahidə şurasının sədri Tahir Gözəl dövlətimizin başçısına və birinci xanıma müəssisə barədə məlumat verdi.

Bildirildi ki, Holdinq tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan bu müəssisədə qazlı və qazsız sular, soyuq çay, meyvə tərkibli, vitaminli və azkalorili içkilər istehsal olunacaq. Ərazisi 10 hektar olan müəssisənin illik istehsal gücü 150 min tondur. Məhsulların daxili bazarla yanaşı, xarici bazarlara ixracı nəzərdə tutulur. Burada İtaliya istehsalı olan müasir avadanlıq quraşdırılıb. İstehsal prosesi suyun təmizlənməsi, şərbət hazırlanması, qarışdırma, qazlaşdırma, məhsulun plastik butulka və şəffaf qida qablarına doldurulması, qapaqlanması, etiketlənməsi və qablaşdırılması mərhələlərini əhatə edir.

Layihənin ümumi dəyəri 70 milyon manatdır. Maliyyələşmədə özəl vəsaitlə və bank kreditləri ilə yanaşı, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) dəstəyi ilə 5 milyon manat məbləğində güzəştli kreditdən, həmçinin əlavə 5 milyon manat kredit üzrə zəmanət və faiz subsidiyası mexanizmindən istifadə edilib. Burada 300 nəfər daimi işlə təmin ediləcək.

Qeyd edək ki, müəssisə Şərqi Zəngəzur iqtisadi rayonunda qida sənayesinin inkişafına töhfə verməklə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsində də böyük rol oynayır. Eyni zamanda, bu layihənin reallaşması ölkəmizin ixrac potensialının artırılmasına öz töhfəsini verir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunun Soltanlı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma Soltanlı kəndində görülən işlər barədə məlumat verdi.

Soltanlı kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. İşğal dövründədək əhali əsasən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 19-da kəndi işğaldan azad edib.

Ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində 420 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. Layihə üzrə Soltanlı kəndində ikimərtəbəli inzibati bina, uşaq bağçası, həkim-tibb məntəqəsi, həmçinin çoxfunksiyalı bina tikilib. Kənddə aptek, market, dərzi, gözəllik salonu və digər xidmət mərkəzləri üçün nəzərdə tutulmuş bir və iki mərtəbəli hissələrdən ibarət olmaqla çoxfunksiyalı bina inşa edilib.

Kənddə inşa olunmuş 140 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada metodika, kompüter, oyun, musiqi otaqları, yeməkxana uşaqların ixtiyarına veriləcək.





Cəbrayıl rayonunun Soltanlı kəndinin birinci mərhələsinin açılışında...

Zəngilanın Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan rayonunun Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Qeyd edək ki, Cahangirbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal dövründədək kənddə məktəb, uşaq bağçası, mədəniyyət evi və rabitə şöbəsi fəaliyyət göstərib. Əhali isə əsasən baramaçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 21-də kəndi işğaldan azad edib. Cahangirbəyli kəndinin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub.

Ümumi sahəsi 179,5 hektar olan Cahangirbəyli kəndində birinci mərhələ üzrə 62,57 hektar ərazidə 242 fərdi evin, məktəb binasının, körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin və çoxfunksiyalı binanın tikintisi həyata keçirilib. Evlər 2, 3, 4, 5 otaqlıdır. Onların hamısı su, işıq, qaz, Günəş panelləri və yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollar da asfaltlanıb.

Kənddəki çoxfunksiyalı binada həkim-tibb məntəqəsi, aptek, market, dərzi, gözəllik salonu fəaliyyət göstərəcək.

Cahangirbəylidə 80 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Buradakı otaqlarda uşaqların istirahəti, həmçinin onların ilkin bilik və bacarıqlarının üzə çıxarılması üçün zəruri şərait yaradılıb.

Kənddə, inzibati binanın yaxınlığında Bayraq meydanı da inşa edilib. Burada ucaldılmış bayrağın hündürlüyü 10,4 metr təşkil edir. Bayraq meydanının yaxınlığında isə uşaq oyun meydançası, sakinlərin sağlam həyat tərzinin təşviqi və fiziki aktivliyinin artırılması məqsədilə idman zonası və park yaradılıb.

Elm və təhsil naziri Emin Əmrullayev 264 şagird yerlik Cahangirbəyli tam orta məktəb binasında yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 13 sinif otağı, kimya və fizika fənləri üzrə 2 laboratoriya, musiqi, informatika, hərbi hazırlıq, rəsm və qrim otaqları, kitabxana, 160 yerlik akt zalı, qapalı idman zalı, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Məktəbin ərazisində 2 açıq idman meydançası da yaradılıb.

X X X

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərlə görüşüblər.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- İlk növbədə, qarşıdan gələn Zəfər bayramı münasibətilə sizi təbrik edirəm. Bu bayram ərəfəsində görüşürük və bu bayram artıq 6 ildir ki, dövlət bayramı kimi qeyd olunur. Altı il bundan əvvəl şanlı Ordumuz düşməni torpaqlarımızdan qovaraq haqq-ədaləti bərpa etdi. Artıq 6 il ərzində biz quruculuq işləri ilə məşğuluq. Yeni salınan kəndlər, şəhərlər, köçkünlərin doğma torpaqlara qayıtması - yəni biz bu məsələlərlə məşğuluq və deyə bilərəm ki, bütün Azərbaycan xalqı bu fikirlə yaşayır. Uzun illər ağır şəraitdə yaşamış köçkünlərin doğma torpaqlara qayıtması hər bir vətəndaşımızın böyük arzusu idi, ilk növbədə, əlbəttə ki, köçkün şəklində, köçkün şəraitində yaşayan insanlar üçün. Amma siz də bilirsiniz ki, hər bir vətənpərvər insan sizin tezliklə doğma diyara qayıtmağınızı arzulayırdı.

Bu gün biz demək olar ki, müntəzəm olaraq yeni gözəl kəndlər, şəhərlər salırıq, sıfırdan qururuq. Çünki mənfur düşmən bizim bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdi, o cümlədən Cahangirbəyli, Soltanlı kəndlərini də tam dağıtmışdı. Bu gün bu iki kəndə təqribən 700-ə yaxın ailə qayıdır. Sizin üçün gözəl evlər tikilib. Əminəm ki, siz bu şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz. Əsas məsələ odur ki, artıq köçkünlük həyatı arxada qalır.

Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi zamanı bir yumruq kimi birləşmişdi. Bu Zəfər bizim qəlbimizdə əbədi yaşayacaq. Xalqımız və gələcək nəsillər bu Zəfərlə daim fəxr edəcəklər. Çünki biz ədaləti bərpa etdik, öz ləyaqətimizi bərpa etdik və döyüş meydanında qan tökərək öz haqqımızı bərpa etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Əminəm, onların yaxınları bilirlər ki, onların qanı yerdə qalmayıb. Onların qisası döyüş meydanında alınıb və bu gün onların əziz xatirəsinə ən böyük hörmət əlaməti bax, Qarabağın, Şərqi Zəngəzurun belə gözəl dirçəldilməsidir.

Biz müharibədə Qələbə qazanmışıq. Sülh şəraitində yaşayan xalqımız da qurub-yaradır. Ermənilər 30 il bu torpaqları viran qoymuşdular, bir daşı daş üstə qoyulmamışdır. Biz isə cəmi altı il ərzində 100 minə yaxın insanı Qarabağa və Şərqi Zəngəzura qaytarmışıq, onlar üçün mümkün olan ən gözəl şərait yaratmışıq.

Sizi həm Zəfər Günü münasibətilə, həm də doğma torpaqlarınıza qayıtmağınız münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram.

x x x

Sonra dövlətimizin başçısı sakinlərə mənzillərin açarlarını təqdim edib.





Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər.

Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı müvafiq Sərəncama əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta ümumtəhsil məktəb binasının layihələndirilməsi və tikintisinə başlanılıb. 2025-ci ildə layihədə konseptual dəyişiklik edilərək, təhsil müəssisəsi Zəngilan Şəhər Təhsil Kompleksi olaraq peşəyönümlü tədris müəssisəsi kimi yenidən layihələndirilib.

Kompleksdə məktəbəhazırlıq, biologiya, informatika, çağırışaqədərki hazırlıq, "STEAM-STARTERS", "STEAM-SCIENCE LAB", "STEAM CHALLENG" otaqları, robot zonaları, laboratoriyalar, dərzi, santexnika çilingəri və elektrik montyoru emalatxanaları yaradılıb. Burada, həmçinin kitabxana, idman və akt zalları, yeməkxana da müəllim-tələbə heyətinin ixtiyarına veriləcək.

Ümumi ərazisi 1,6 hektar olan kompleksin həyətində də geniş abadlıq işləri aparılıb, açıq idman meydançası və qaçış zolağı yaradılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu təhsil siyasəti nəticəsində son illərdə yüzlərlə yeni məktəb binası tikilib, mövcud təhsil müəssisələri isə əsaslı təmir olunub. Bu siyasətin mühüm istiqamətlərindən biri də işğaldan azad olunmuş torpaqlarımızda "Böyük Qayıdış" Proqramı çərçivəsində hərtərəfli infrastrukturun yaradılmasıdır ki, təhsil müəssisələri də burada xüsusi yer tutur. Zəngilanda yeni təhsil kompleksinin istifadəyə verilməsi doğma torpaqlarına qayıdan ailələrin övladları üçün hər cür şəraitin yaradıldığının, onların keyfiyyətli təhsil almalarına göstərilən diqqət və qayğının əyani təzahürüdür. Müasir tədris imkanlarına malik bu kompleks gənc nəslin bilikli, savadlı yetişməsinə, onların peşə vərdişlərinin inkişafına mühüm töhfə verəcək.

X X X

Bu gün Zəngilan şəhərində 160 yerlik körpələr evi-uşaq bağçasının da açılışı olub.

Qeyd edək ki, körpələr evi-uşaq bağçası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı inşa olunub.

Burada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların asudə vaxtlarının səmərəli təşkili, həmçinin balacaların ilkin bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb. Körpələr evi-uşaq bağçasında oyun, yataq, kompüter, tibb otaqları və idman zalı da var. Musiqi, rəqs və akt zalları da balacaların ixtiyarına veriləcək. Körpələr evi-uşaq bağçasının həyətində abadlıq işləri həyata keçirilib, balacaların açıq havada istirahəti üçün zəruri şərait yaradılıb.





Prezidenti təbrik edirlər...

Zəfər günü münasibəti ilə Azərbaycan Prezidentinin ünvanına təbrik məktubları daxil olur. Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi Ramil Həsən, ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Misir-Azərbaycan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvləri, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və Direktorlar Şurasının sədri Məhəmməd Əbunəyyan, Türk Dövlətləri Təşkilatının sabiq Baş katibi Kubanıçbek Ömüralıyev, Suriya Türkman Məclisinin sədri, Suriya Xalq Məclisinin üzvü Əbdürrəhman Mustafapaşa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov və digər ölkə rəhbərləri, ictimai-siyasi xadimlər Prezident İlham Əliyevə ali dövləti fəaliyyətində uğurlar, Azərbaycan xalqına davamlı sülh, firavanlıq və davamlı tərəqqi arzulayıblar.

6 yaşlı Zəfərimiz!

Son iki yüz illik tariximizdə çoxlu faciələrlə üzləşmişik. Ən böyük faciəmiz isə amansız istilalar nəticəsində tarixi ərazilərimizin itirilməsi, sərhədlərimizin daralması olub. İmperialist güc mərkəzlərinin məkrli planlarının nəticəsi olaraq əzəli torpaqlarımızda Ermənistan adlandırılan dövlət qurulub.

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərlə itkilər seriyasına, nəhayət, son qoyulub. Prezident, Ali Baş Komandan İlham Əliyevin memarı olduğu bu Qələbə sayəsində xalqımız son 200 ildə ilk dəfə olaraq torpaq itkilərinə məruz qamadı, əksinə ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla təmin edildi.

2020-ci il noyabr ayının 10-da imzalanan üçtərəfli bəyanatla 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz rəsmən təsdiqini tapıb. Artıq böyük Zəfərimizin 6 yaşı var. Tarixdə əbədi qalacaq və hər zaman qürur mənbəyimiz olacaq bu Zəfər Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün, qüdrətinin və vətəndaş həmrəyliyinin rəmzidir.



Azərbaycanın Vətən müharibəsindəki hərbi-diplomatik uğurları

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratаz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olunub.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Azərbaycanın hərbi qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla həmçinin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edilmiş oldu. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir.





Böyük Qələbənin qüruru və sevinci - Zəfər paradı

Xalqımız, dövlətimiz 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbəni ilk dəfə 10 dekabr 2020-ci il tarixində Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı ilə qeyd etdi. Həmin tarixədək Azadlıq meydanı, Bakı küçələri çoxlu sayda paradlara, izdihamlı tədbirlərə şahidlik etmişdi. Zəfər paradının isə xüsusi bir mənası var idi. Xalqımız bu tənətənəni düz otuz il həsrətlə və böyük inamla gözləmişdi.

Möhtəşəm Zəfərimiz tarixi ədalətin, beynəlxalq hüququn bərpası idi. Zəfər paradının keçirilməsi də Azərbaycanın şanlı Qələbəsinin növbəti əzəmətli və təntənəli nümayişi oldu. Paradda "Qarabağ Azərbaycandır!" şüarı bir daha qürurla ifadə olundu. Paraddakı çıxışında Zəfərin qürurunu və sevincini xalqla bölüşən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi.

Zəfər paradı həmçinin dünyaya Azərbaycan-Türkiyə həmrəyliyinin, dostluğunun, qardaşlığının nə qədər möhkəm olduğunu nümayiş etdirdi.

Türkiyə Prezidentinin Zəfər paradında iştirakı təsadüfi deyildi. Məhz qardaş Türkiyə Vətən müharibəsində ədalətli müharibə aparan Azərbaycana güclü mənəvi-siyasi dəstək göstərdi və bu da bizim özümüzə inam hissimizi daha da gücləndirdi. Prezident İlham Əliyev paradda çıxışı zamanı bu məqamlara toxunaraq bildirib: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür".

Ötən il noyabrın 8-də şanlı Zəfərin 5 illiyi münasibətilə Bakıda növbəti möhtəşəm hərbi parad keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevlə bərabər, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin də qatıldıqları əzəmətli paradda Azərbaycan, Türkiyə və Pakistan Silahlı Qüvvələrinin şəxsi heyəti, xüsusi təyinatlı dəstələr və ordu korpusları keçid ediblər. Paradda T-90S tankları, S-300 və HQ-9 zenit-raket kompleksləri, LORA raket sistemləri, Bayraktar-TB2, Akıncı, JF-17 və F-16 qırıcıları, Mi-17 helikopterləri, Su-25 hücum təyyarələri və digər hərbi texnika nümayiş olunub.

Bu parad müharibədən sonrakı beş il ərzində qalib Azərbaycan Ordusunun daha da gücləndiyinin nümayişinə çevrildi. Müharibə başa çatsa da, Azərbaycan dayanmadı - həm Ordunun maddi-texniki təchiatı gücləndirldi, yeni müasir silahlar alındı, həm də qardaş Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğun çevik komando birlikləri yaradıldı. Qələbənin 5 illiyinə həsr olunan paradda həmçinin yerli istehsala aid müasir hərbi texnikaların nümayiş olunması da xalqımıza sonsuz qürur hissi yaşatdı..

Erməni tankları Bakıya hərbi qənimətlər kimi gəldi...

Mənfur düşmən havadarlarının dəstəyinə arxalanmaqla torpaqlarımızdan çıxmaq istəmirdi, hətta cəzasız qaldığından ruhlanaraq yeni ərazilər uğrunda yeni müharibə istəyini gizlətmirdi. Özləri barədə miflər düzəldən Ermənistan silahlı qüvvələrinin, Qarabağdakı separatçı rejimin təmsilçiləri tanklarla Bakıya gələcəklərini bəyan edirdilər. Erməni hərbçiləri, separatçı rejimin başında dayananlar və onların silahları həqiqətən də Bakıya gəldi. Ancaq qolları qandallı şəkildə, hərbi qənimət qismində. 44 günlük müharibədə "döyüşkən erməni xalqı" mifi tar-mar oldu. Bu, necə döyüşkən ordu idi ki, onun əsgər və zabitləri Azərbaycan hərbçilərinin ayaq səslərini eşidən kimi gizlənməyə və yaxud qaçmağa yer axtarırdılar. Erməni mətbuatının yazdığına görə, müharibə günlərində 11 mindən çox erməni hərbçisi fərarilik edərək döyüş meydanından qaçıb. Azərbaycan Ordusu isə 44 gün ərzində mümkünsüz görünəni reallığa çevirdi, hər gün döyüş meydanlarında qələbələr qazandı, hər gün irəlilədi.

Bakının Xətai rayonunda yaradılan Hərbi Qənimətlər Parkı ermənilərin necə bir "qəhrəman" xalq olduqlarının əyani sübutudur, desək, yanılmarıq. Bu parkın açılışı Qələbəmizin əsas memarı olan Prezident İlham Əliyevin iştirakı ilə 12 aprel 2021-ci il tarixində baş tutub. Burada Vətən müharibəsində Azərbaycan Ordusunun qənimət kimi götürdüyü Ermənistan silahlı qüvvələrinə məxsus müxtəlif döyüş texnikası nümayiş olunur.

Xatırladaq ki, Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra - 2020-ci il noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu deyib. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər yekunlaşıb: açıq səma altında nadir park salınıb. "Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər", - deyə Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışındakı çıxışında bildirib.

Bakıda və azad Xankəndidə yaradılan Zəfər tağları

İkinci Qarabağ müharibəsindən ötən altı ildə tarixi Qələbəmizin əbədiləşdirilməsi məqsədi ilə Bakıda və Xankəndidə Zəfər tağları yradılıb. Bakıda 8 Noyabr prospektində yaradılan rəmzi Zəfər Tağının açılışı 8 noyabr 2024-cü il tarixində baş tutub. Tədbirdə dövlət başçısı ilə yanaşı, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev də iştirak ediblər. Zəfər Tağının hündürlüyü 44 metrdir və burada 44 tağ elementindən (sütundan) istifadə olunub. Bu, 44 günlük Vətən müharibəsini simvolizə edir. Zəfər Tağının yerləşdiyi Zəfər Parkı ümumilikdə 9 hektardan artıq böyük bir ərazini əhatə edir. Parkda Qarabağ xalça naxışlı yaşıllıqlar salınıb və Zəfər memorial abidəsi ucaldılıb. Kompleksin tərkib hissəsi olan Zəfər muzeyinin açılışı isə 8 noyabr 2025-ci il tarixində - Qələbəmizin 5-ci ilinin tamamında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə baş tutub. Zəfər muzeyi Prezident İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".

Daha bir Zəfər Tağı isə azad Xankəndidə yaradılıb. 24 dekabr 2025-ci il tarixində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xankəndi şəhərində salınmış Zəfər parkının və parkın mərkəzində ucalan Zəfər Tağının rəsmi açılışında iştirak ediblər.

Parkın girişindən Zəfər Tağına doğru 44 pilləkən salınıb. Pilləkənlərin mərkəzində quraşdırılmış lövhələrdə müharibənin gedişi, azad olunmuş yaşayış məntəqələrinin adları və 2023-cü ilin antiterror əməliyyatının nəticələri barədə məlumatlar qeyd edilib.

Bütün bunlar şanlı Zəfərimizin tariximiz üçün nə qədər böyük önəm daşıdığını ifadə edir. Xalqımızın Qələbəni təntənəli şəkildə qeyd etməyə mənəvi haqqı var. Çünki bu Qələbəni heç kim bizə hədiyyə etməyib. Onu igid əsgər və zabitlərimiz ağır döyüşlərdə misilsiz şücaətlər göstərməklə, canlarını Vətən torpağı uğrunda fəda etməklə, şəhidlik zirvəsinə ucalmaqla qazanıblar.

Mübariz ABDULLAYEV

Zəfərimizin yolu...

"Zəfər yolu" tarixi qələbəmizin simvollarından biridir

8 Noyabr xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan müqəddəs gündür. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala 44 gündə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan qalib ölkəyə, Azərbaycan xalqı qalib xalqa çevrildi. Bu möhtəşəm Qələbə, eyni zamanda, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi.



İlk layihə...

Şanlı zəfərimizin simvollarından biri də "Zəfər yolu"dur. 44 günlük müharibədə qəhrəman döyüşçülərimizin Şuşaya doğru dağların, meşələrin qoynu ilə irəliləyərək açdığı cığır boyu avtomobil yolu salınıb. Prezident İlham Əliyev Şuşaya 101 kilometr uzunluğu olan bu yolu "Zəfər yolu" adlandırıb. Belə ki, Vətən müharibəsinin başa çatmasından dərhal sonra ölkə rəhbərliyinin azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün verdiyi tapşırıqlardan biri də Şuşa şəhərinə yeni avtomobil yolunun çəkilməsi oldu. Təməli qoyulan ilk layihə isə bu yol idi.


2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı Şuşa şəhərinə qədər uzanacaq bu avtomobil yolunun təməlqoyma mərasimi keçirildi. Bundan dərhal sonra isə layihənin icrasına start verilib. Həmin gün bu münasibətlə xalqımızı təbrik edən Prezident İlham Əliyev demişdi: "Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil. Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Dövlət başçısı tərəfindən 2020-ci il noyabrın 17-də isə Əhmədbəyli - Füzuli - Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalanıb. Sərəncama əsasən ümumi uzunluğu 101,5 kilometr olan Əhmədbəyli - Füzuli - Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrılıb. Sərəncamda Nazirlər Kabinetinə, Maliyyə və İqtisadiyyat nazirliklərinə müvafiq tapşırıqlar verilib.

"Zəfər yolu" 1 ildən də tez inşa edilib

7 noyabr 2021-ci ildə isə yolun rəsmi açılışı olub. Belə ki, Azərbaycan Prezidenti və birinci xanım "Zəfər yolu"nun açılışını reallaşdırıblar. "Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-ci texniki dərəcəyə uyğun inşa edilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürən bu yol Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən yol Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edir.

Şuşanın və ümumilikdə Qarabağın gələcək inkişaf perspektivləri nəzərə alınmaqla çəkilən "Zəfər yolu" yüksək səviyyədə inşa olunub və mənzilbaşına heç bir çətinliklə üzləşmədən rahat yetişmək mümkündür. Bu baxımdan təəssürat ondan ibarətdir ki, ilk gündən yol boyunca tikinti işləri sürətlə həyata keçirilib. Xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə əvvəlcə ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Cəmi 2 ay ərzində ərazi genişləndirilib, yeni torpaq yatağı inşa edilib və bununla asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilməsi işləri artıq tamamlanıb. Çətin relyefə malik qayalıq ərazidən keçən hissələrdə yolun eninin alınması üçün dağların partladılması üsulu ilə yeni yol yatağının, həmçinin yol əsasının inşası işləri həyata keçirilib. Yolda 4 yeni avtomobil körpüsü də inşa edilib. Körpülərin uzunluqları 45, 80 və 90 metr olmaqla, yolun 26.9-cu, 37.2-ci, 37.5 və 57.3-cü kilometrlik hissələrini əhatə edir. Eyni zamanda, bu yolda 7 tunel inşa olunub. Ərazinin dağlıq olduğunu nəzərə alaraq suların ötürülməsini təmin etmək məqsədilə 82 drenaj quyusu qazılıb, 5.6 km uzunluğunda müxtəlif diametrli drenaj borular çəkilib, 3.2 km uzunluğunda istinad divarları və 9 yerdə yeraltı keçid inşa edilib. Həmçinin 120 km-ə yaxın beton küvetlər tikilib.



Tikintinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə ərazidə yeni düşərgə inşa edilib. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulub.

Bir sözlə, "Zəfər yolu" şəhidlərimizin qanı ilə yazdıqları şanlı tarixin şahididir. Müzəffər ordumuz məhz həmin yolla Şuşa şəhərinə daxil olduğundan bu yolun həm də, rəmzi mənası, mənəvi dəyəri, xüsusi önəmi var. Ona görə Prezident İlham Əliyevin Şuşaya çəkilən magistral yolu "Zəfər yolu" adlandırması təsadüfi deyil. Bu yol boyunca torpaqların hər qarışına şəhidlərimizin və qazilərimizin qanı qarışıb. Başqa sözlə, rəşadətli Azərbaycan Ordusu bu yolla irəliləyərək döyüşüb, bu yolda şəhidlər verərək Şuşanı və ətraf yaşayış məntəqələrini düşməndən azad edib, zəfər qazanıb. Odur ki, bu yol Azərbaycanın müasir tarixində ordumuzu şanlı qələbəyə aparan müqəddəs yol kimi qalacaq!

Nardar BAYRAMLI

"Zəfər yolu"- şanlı tarixin şahidi

Əziz Şuşa, sən azadsan!

Ata vəsiyyətinə necə əməl olundu?

Azərbaycan dövləti və xalqı üçün 8 noyabr xüsusi bir gündür. Tarixin bu günündə - 2020-ci il noyabrın 8-də Şuşa təxminən otuz illik işğaldan sonra azadlığına qovuşub.

Uca dağlar başında qərar tutan Şuşa bizim üçün yalnız bir şəhər, yaşayış məskəni kimi əhəmiyyət daşımır. Hər bir azərbaycanlı onu həm də mənəviyyat simvolu kimi qəbul edərək qəlbində yaşadır. Əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa Qarabağın tacıdır. Lakin bu şəhərin əvəzsiz dəyəri yalnız onun coğrafi yerləşməsində, təbii gözəlliyində deyil. Şuşa tarixən Azərbaycan şəhəri kimi inkişaf edib və burada onilliklər boyunca zəngin mədəniyyətimizin çox gözəl nümunələri yaranıb. Ölkəmizi bütün dünyada tanıdan muğam ustadlarının, xanəndələrin sıraları kifayət qədər geniş olan pleyadası məhz Şuşanın yetirməsidir. Buna görə də 1992-ci il mayın 8-də işğal altına düşən əziz Şuşanın 6 il bundan əvvəl igid hərbçilərimizin şücaəti ilə geri qaytarılması tariximizdə milli qürur hadisəsi kimi əbədi qalacaq.





Ulu Öndərin ən böyük arzusu - O, "Şuşa Azərbaycanın gözüdür" deyirdi

Qarabağın, bura imperialist güc mərkəzlərinin məkrli siyasətlərinin nəticəsi olaraq ermənilərin köçürülməsinin taixini yaxşı bilən Ulu Öndər Heydər Əliyev hələ keçmiş sovet dönəmində Azərbaycanda məsul vəzifələrdə çalışdığı, həmçinin respublikaya rəhbərlik etdiyi illərdə bu bölgəyə xüsusi həssaslıqla yanaşırdı. Ermənilərin Dağlıq Qarabağa iddiaları həmişə olub, onlar bu məsələni daim müxtəlif yollarla ittifaq dövlətinin gündəliyinə daşımağa çalışıblar. Ancaq Heydər Əliyev fenomeni onların bəd niyyətlərini gözlərində qoyurdu. Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin təbirincə desək, Heydər Əliyev ermənilərin qarşısında bir sipər kimi dayanırdı. Ulu Öndər ötən əsrin altmışıncı illərində Azərbaycan SSR DTK-da müxtəlif vəzifələrdə çalışarkən və sonradan qurumun sədri olarkən erməni millətçilərinin Ermənistanda və Xankəndidə Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı fəaliyyətlərinin izinə düşmüşdü. Erməni millətçiləri tərəfindən hazırlanan bu ssenarilər müxtəlif istiqamətləri əhatə edirdi. Bu ssenarilərə həmçinin Xankəndidə və digər ərazilərdə erməni əhalisinin Azərbaycan hakimiyyətindən narazılığını ifadə edən aksiyaların təşkil olunması, milli zəmində cinayətlərin törədilməsi, hətta erməni gənclərinin azərbaycanlılar tərəfindən qətlə yetirilməsi, Dağlıq Qarabağın respublikamızla iqtisadi bağlılığının olmaması ilə əlaqədar təbliğatlar aparılması və s. daxil idi. Respublika DTK-nın sədri Heydər Əliyev bütün bu kimi faktlar barədə müfəssəl hesabatlar hazırlayaraq respublikanın o vaxtkı rəhbərliyinə təqdim etdi və qeyd olunan ssenarilərin hamısının qarşısını aldı. O, erməni millətçilərinin planlarının pozulması əməliyyatlarında şəxsən iştirak edir və tez-tez Xankəndiyə, Şuşaya gedirdi.

Erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycanla iqtisadi inteqrasiyasının olmadığını əsaslandırmağa çalışırdılar. Ancaq Heydər Əliyevin keçmiş ittifaq dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə məqsədyönlü fəaliyyəti sayəsində ermənilərin bu əsaslandırmalarının da qarşısı alındı. Onun səyləri sayəsində Azərbaycanın bütün bölgələrində olduğu kimi, Dağlıq Qarabağda da genişmiqyaslı infrastruktur quruculuğu işləri görüldü, burada bir sıra istehsalatların filialları yaradıldı, aran və dağlıq Qarabağı birləşdirən Ağdam-Xankəndi dəmiryolu çəkildi. Ulu Öndər 1979-cu il yanvarın 12-də həmin yolun açılışında şəxsən iştirak etdi.

Heydər Əliyev Dağlıq Qarabağda yaşayan azərbaycanlılar arasında milli ruhun gücləndirilməsinə böyük səy göstərirdi. Şuşanı Azərbaycanın rəmzi kimi dəyərləndirən Heydər Əliyev burada mədəni mühitin canlandırılması üçün müxtəlif layihələrin, poeziya və musiqi bayramlarının keçirilməsinə nail olurdu. 1982-ci il yanvarın 14-də qarlı havada Heydər Əliyevin və ailə üzvlərinin iştirakı ilə Şuşada M.P.Vaqifin əzəmətli məqbərəsinin böyük təntənə ilə açılışı baş tutdu. Bütün bu kimi layihələrlə Heydər Əliyev Dağlıq Qarabağın Azərbaycanla iqtisadi, mədəni və milli bağlılığını gücləndirirdi.

Sonrakı mərhələdə- Ulu Öndər Moskvada keçmiş ittifaq rəhbərliyində çalışdığı dövrdə də ermənilərin Dağlıq Qarabağla bağlı iddialarının gündəmə gəlməsinə imkan vermədi. Heydər Əliyevin Özü ermənilərin fitnəkarlıqlarını belə xatırlayırdı: "60-70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam".

Keçmiş ittifaq rəhbərliyinin siyasətinə etiraz edən Heydər Əliyev 1987-ci il oktyabr plenumunda tutduğu vəzifələrdən istefa verdi. Bununla da ermənilərin qarşısındakı sipər aradan qalxdı və onlar Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda açıq fəaliyyətə başladılar. Belə ki, Heydər Əliyev bütün vəzifələrdən gedəndən heç iki həftə keçməmiş erməni separatçılar məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin.

Havadarlarının dəstəyinə arxalanan Ermənistan ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycandakı AXC-"Müsavat" iqtidarının diletant siyasətindən bəhrələnməklə keçmiş Dağlıq Qarabağın və daha beş rayonun işğalına nail oldu. Iş elə gətirdi ki, torpaqlarımızın işğaldan azad olunması və ölkənin ərazi bütövlüyünün təmin olunması siyasətinin əsasını da Ulu Öndər Heydər Əliyev qoydu. Prezident Ilham Əliyevin bidirdiyi kimi, Torpaqlarımızın işğaldan azad edilməsi Ulu Öndərin ən böyük arzusu idi. Heydər Əliyevin Özü qəlbindən keçən hisslərini, torpaqlarımıza qayıdacağımıza bəslədiyi böyük ümidlərini ifadə edərək deyirdi: "Arzu edirəm ki, sizlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün iftixar bir nöqtəsidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir, amma tək Şuşa yox. Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu. Biz onlarsız yaşaya bilmərik. Təsəvvür edə bilmərik".

Əziz Şuşa, biz qayıtmışıq!

Xalqımızın mental dəyərlərində ata vəsiyyəti, oğul qeyrəti kimi anlayışlar xüsusi yer tutur. Tarixdən gələn ənənədir: Oğul atanın vəsiyyətini yerinə yetirməyi özünə borc bilir, buna nail olduqda isə özünü dünyanın ən xoşbəxt insanı sanır. Bu mənada Prezident İlham Əliyev xoşbəxt insandır. O, 44 günlük müharibəsində atasının Şuşanın, digər ərazilərimizin işğaldan azad edilməsi ilə bağlı vəsiyyətini yerinə yetirməyə nail oldu.

1992-ci il mayın 8-də Şuşa şəhərinin xəyanət nəticəsində işğal altına düşməsi hər bir azərbaycanlı üçün son dərəcə kədərli idi. Otuz ilə yaxın bir dövrü əhatə edən işğal gecə-gündüz qəlbimizi göynədirdi. Biz daxilən Şuşanın işğalını heç vaxt qəbul etmirdik, bununla barışmırdıq. Hər birimizin qəlbində baş vermiş mənfur işğala qarşı bir etiraz, müqavimət var idi. Elə Prezident, Ali Baş Komandan İlham Əliyev də Şuşanın düşmən əlində qalmasına qətiyyən razı deyildi. Məlumdur ki, uzun sürən danışıqlar prosesində və elə Vətən müharibəsi günlərində dövlətimizin başçısına ermənilərin havadarlarından müxtəlif təzyiq cəhdləri göstərilirdi. Bizdən yarımçıq sülh istənilirdi. Prezident İlham Əliyev qətiyyət və diplomatik məharət göstərdi, müharibənin dayandırılması üçün Ermənistanın ərazilərimizdən tamam geri çəkilməsini, bununla bağlı cədvəl təqdim etməsini istədi. Həm də bütün dünyaya birmənalı şəkildə bəyan etdi ki, Şuşasız bizim işimiz, missiyamız yarımçıq qalar, tamamlanmaz. Beləliklə, ana torpaq, doğma ərazilər, o cümlədən də Şuşanın azad edilməsi məsələsində xalqın istəyi ilə dövlət başçısının siyasi iradəsi bir-birini tamamlayırdı.

Bu vədət, həmrəylik, Şuşanı azad etmək əzmi igid əsgər və zabitlərimizə də sirayət etmişdi. Onların Şuşanı azad etmələri, sözün əsl mənasında bir qəhrəmanlıq nümunəsidir. Meşənin içindəki cığırdan keçib Şuşaya çatan hərbçilərimiz misilsiz şücaətlər göstərdilər. Vətən müharibəsi günlərində KİV-də bir foto manşetlərdə təqdim olundu. Həmin fotoda əlində silah, çiyinlərində yaralı səngər yoldaşını daşıyaraq həmin o cığırla Şuşaya doğru irəliləyən Azərbaycan əsgəri təsvir olunmuşdu. Budur, bizim hərbçilərin sərhəd tanımayan Vətən, torpaq və Şuşa sevgisi! Noyabrın 8-i, 2020-ci il. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın azadlığa qovuşduğu barədə xoş müjdəni Azərbaycan xalqına çatdırdı. "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa işğaldan azad olunan gün Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər.

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Prezident İlham Əliyevin həmin gün xalqa müraciətində səsləndirdiyi bu sözlər indi də qulaqlarda əks-səda verir. 2020-ci il noyabrın 8-i şanlı Qələbəmiz Azərbaycan tarixinə əbədi yazıldı. Təsadüfi deyil ki, Şuşanın işğaldan azad olunduğu gün Prezident İlham Əliyevin Sərəncamı ilə "Zəfər günü" elan edildi.

Müharibədən sonra azad Şuşanın həyatında yeni dönəm başlayıb. Şəhər sürətlə dirçəldilir. Burada müasir infrastruktur qurulur, yaşayış evləri tikilir. Artıq şəhər mərhələli şəkildə məskunlaşdırılır. Eyni zamanda. Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşanın qaynar mədəni həyatı geri qayıdır, tarixi abidələr bir-birinin ardıca bərpa olunur. Bir sözlə, azad Şuşa doğma əllərdədir və yeni növrağını yaşayır.

Mübariz ABDULLAYEV

07 noyabr 2026-cı il, şənbə № 205 (7272)

ZƏFƏR ayının QƏLƏBƏ müjdələri!

Zəfər ayının 7-ci günü
7 noyabr 2020-ci il

• Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi tviter hesabında bildirib.



• Müdafiə Nazirliyinin məlumatına əsasən, döyüş əməliyyatları müxtəlif intensivlikdə cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə mövqelərinə artilleriya zərbələri endirilib. Həmçinin işğalçı ordunun 6-cı dağatıcı alayının birinci taborunun bölmələrinin şəxsi heyəti itkilərə məruz qalıb, D-30 artilleriya divizionunun 3-cü batareyasının topları sıradan çıxarılıb.

• Döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən geriyə çəkilməyə məcbur edilib. Bölmələrimiz Ermənistan ordusunun 178-ci ələhiddə kəşfiyyat taborundakı, eləcə də 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyətini məhv ediblər. Bu barədə Müdafiə Nazirliyinin keçirdiyi brifinqdə məlumat verilib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini paylaşıb.

• Düşmənin Ağdamdan Xankəndi istiqamətində hərəkət edən 3 "KamAZ", 2 "Ural" və 2 PDM-dən ibarət hərbi kolonunun atəşə tutulması nəticəsində çoxlu sayda hərbi qulluqçusu məhv edilib.

• ANAMA: Tərtərdə aşkarlanan partlamamış raket və bombacıq zərərsizləşdirilib.



Zəfər ayının 8-ci günü
8 noyabr 2020-ci il - Şuşa işğaldan azad olundu

• Şuşa şəhəri işğaldan azad edilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

• Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri general-leytenant Hikmət Mirzəyevə zəng edərək onu Şuşa şəhərinin işğalçılardan azad olunması münasibətilə təbrik edib.

• Prezident İlham Əliyev Türkiyənin xarici işlər və milli müdafiə nazirlərini qəbul edib.

• Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib.

• Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Ermənistan silahlı qüvvələrinin xeyli sayda canlı qüvvəsi, dörd ədəd T-72 tankı, iki ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili sıradan çıxarılıb.

• Cəbhənin Xocavənd istiqamətində düşmənin yüksək vəzifəli şəxsləri məhv edilib. Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Cəbhənin Xocavənd istiqamətində düşmən bəzi mövqeləri ataraq qaçır. Bu istiqamətdə Ermənistan silahlı qüvvələri ciddi itkilər verir.

• İşğaldan azad olunmuş Zəngilan rayonu ərazisindəki sərhəd zastavalarında dövlət bayrağımız ucaldılıb.

• Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün tviter hesabında bildirib.

• Daha 48 kənd, 1 qəsəbə və 8 strateji yüksəklik işğaldan azad edilib. Bu barədə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün tviter hesabında məlumat verib.

• Prezident İlham Əliyev "BBC News" telekanalına müsahibə verib.

• Döyüş əməliyyatları cəbhənin əsasən Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. "Su-25" həmlə təyyarəsi və pilotsuz uçuş aparatlarının tətbiqi ilə hərbi hava qüvvələrimizin Xocavənd istiqamətində endirdiyi aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları darmadağın edilib. Ordumuzun bu istiqamətdə və Qırmızı Bazar məntəqəsi ətrafındakı mövqelərə hücumları qarşısında aciz qalan Ermənistan silahlı birləşmələrinin 2-ci və 3-cü motoatıcı alaylarının bölmələri müdafiə hədlərini ataraq qaçıb. Cəbhənin Tərtər istiqamətindən bölmələrimizi atəşə tutan düşmənin 10-cu dağatıcı diviziyasının minaatan heyəti zərərsizləşdirilib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, üç tankı, bir piyada döyüş maşını, iki topu və yük avtomobili, minaatan heyəti, döyüş sursatı sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verilib.

• Müdafiə Nazirliyi düşmənin atəş nöqtələrinin və şəxsi heyətinin məhv edilməsini əks etdirən videogörüntü yayıb.

• Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında bölmələrimizə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin bir tankı və bir piyada döyüş maşını vurulub. Xocalı-Şuşa yolu ilə Xankəndi istiqamətində hərəkət edən düşmən ordunun canlı qüvvə ilə dolu qoşqusunda D-30 topu olan yük maşını zərbə PUA-ları ilə məhv edilib.

• Cəbhənin Xocavənd istiqamətində düşmənin mövqelərinə artilleriya zərbələri endirilib. İşğalçı ordunun "Tor-M2KM" zenit-raket kompleksi, atəş mövqeyinə çıxarılan "Osa" zenit-raket kompleksi, eləcə də canlı qüvvəsi bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

• Ermənistanın dinc əhaliyə qarşı törətdiyi təxribatlar nəticəsində sentyabrın 27-dən noyabrın 9-dək 93 mülki şəxs həlak olub, 407 nəfər xəsarət alıb, 3 min 326 ev, 120 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə fəaliyyətə başlayıb.


x x x


• Noyabrın 10-na keçən gecə Azərbaycan Prezidenti, Ermənistanın Baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə Bəyanat imzalayıblar. Bununla bağlı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edib.


Zəfər ayının 9-cu günü
9 noyabr 2020-ci il - Ermənistan kapitulyasiya aktını imzaladı











YAP nümayəndə heyəti ICAPP-ın 13-cü Baş Assambleyasında iştirak edib









Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadədən ibarət nümayəndə heyəti 5-6 noyabr tarixlərində Koreya Respublikasının "Mincu" (Demokratik) Partiyası və Xalqın Gücü Partiyasının birgə ev sahibliyi ilə Seul şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 13-cü Baş Assambleyasında (BA) iştirak edib.

"Dəyişən dünyada etimadın bərpası" mövzusuna həsr olunmuş və 36 ölkədən 83 siyasi partiyanın nümayəndələrinin iştirak etdiyi 13-cü BA-nın açılış mərasimində Koreya Respublikasının Prezidenti Li Ce Myunun tədbir iştirakçılarına videomüraciəti təqdim olunub, "Mincu" (Demokratik) Partiyasının rəhbəri Kim Min-seok, Xalqın Gücü Partiyasının rəhbəri Canq Donq-hyeok, ICAPP Daimi Komitəsinin sədri Çunq Euyonq və Milli Assambleyanın sədri Ço Ceonq-sik açılış nitqi ilə çıxış ediblər.

Daha sonra ICAPP-ın baş katibi Oh Sonq tərəfindən təşkilatın 2024-2026-cı illər ərzində fəaliyyətinə dair hesabat təqdim olunub. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da daxil olmaqla 5 ölkədən (Azərbaycan, Banqladeş, Çin, Malaziya, Vyetnam) nümayəndələr 13-cü BA-nın Büro sədrinin müavini seçiliblər. Həmçinin, ICAPP Nizamnaməsinə təklif edilən dəyişikliklər müzakirə olunaraq qəbul edilib.

Baş Assambleyanın plenar sessiyalarında siyasi partiyalar arasında dialoqun inkişafı, qarşılıqlı etimadın möhkəmləndirilməsi, dayanıqlı sülh və sabitliyin təşviqi, demokratik idarəetmənin gücləndirilməsi, süni intellektin imkanlarından ümumi rifah naminə istifadə və iqlim dəyişikliyi ilə mübarizə kimi aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Birinci plenar sessiyada çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin regionda sülh və əməkdaşlıq üçün yaratdığı yeni imkanlar, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri, idarəetmədə səmərəliliyin artırılması məqsədilə innovasiyaların tətbiqi və süni intellektin imkanlarından istifadə, eləcə də ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə sahəsində ölkəmizin gördüyü işlərdən bəhs edib, YAP-ın təşkilatçılığı ilə 2022-ci ildən etibarən hər il iyunun 15-də Şuşa şəhərində keçirilən beynəlxalq konfransların siyasi dialoq və beynəlxalq partiyalararası əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Noyabrın 6-da BA çərçivəsində keçirilən ICAPP Media Forumunun "Süni intellekt transformasiyası" mövzusunda 8-ci iclasında çıxış edən Milli Məclisinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə müasir informasiya mühitində süni intellektin jurnalistikaya təsiri, dezinformasiyaya qarşı mübarizə və etibarlı informasiya mühitinin qorunmasının əhəmiyyəti, Azərbaycanın rəqəmsal transformasiya təcrübəsi və süni intellektin imkanlarından səmərəli istifadə sahəsində görülən işlərdən bəhs edib.

Bağlanış sessiyasında plenar sessiyaların və ICAPP Media Forumunun 8-ci iclasının nəticələrinə dair hesabatlar təqdim olunub, Seul Bəyanatı qəbul edilib. Yekunda 14-cü Baş Assambleyaya 2028-ci ildə ev sahibliyi edəcək Vyetnam Kommunist Partiyasının nümayəndələrinə təşkilatın bayrağı və sədr çəkicinin təqdim edilməsi mərasimi keçirilib.

Şuşada mümkünsüzü mümkün etdi

Tarix yazan Azərbaycan Ordusu...

Azərbaycanın şərəf tarixinin qürur səhifəsi...

Dünya minilliklər boyu saysız, hesabsız müharibələr görüb, döyüşlərə şahid olub. Bu döyüşlərin arasında asanı da olub, çətini də. Hətta mümkünsüzü də olub - 30 il davam edən Qarabağ həsrətinin, Qarabağ nisgilinin Zəfər marşının çalındığı Şuşa döyüşləri kimi mümkünsüz sayılan döyüş. Tarix yazan Azərbaycan Ordusu Şuşada mümkünsüzü mümkün etdi...



2020-ci ilin sentyabırn 27-dən başlanan müqəddəs Zəfər yolunun ən çətin və ən şanlı dyanacağına gəlib çatmışdıq. Tarix noyabrın 4-nü göstərirdi. Şuşa və ətrafındakı dağlıq ərazi Qarabağın ən strateji əhəmiyyətli yerlərindən biri idi. Buranı Qarabağın "döyünən ürəyi" də adlandırırdılar.

Cəbrayıl şəhərindən irəliləyən Azərbaycan Ordusu Hadrut qəsəbəsini işğaldan azad etdikdən sonra şimala doğru irəliləyərək meşələri və dağ keçidlərini aşıb, Şuşa ərazisinə daxil olmuşdular. Şəhər ətrafında lokal döyüşlər oktyabrın 29-dan başlamışdı. Azərbaycan qoşunları Çanaqçı kəndini işğaldan azad etmiş, ardından da strateji Şuşa-Laçın yolunun bir hissəsinin nəzarətini ələ keçirmişdi.

Tarixin görmədiyi döyüş...

Müharibə ilə bağlı mənbələrin yazdığına görə, 28 - 30 oktyabr tarixləri arasında Şuşanı düşməndən azad etmək və şəhərin müdafiəsini yarmaq üçün Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri əraziyə yerləşdirildi. Bəzi məlumatlara görə, Azərbaycan XTQ qüvvələrinin 400 hərbçisi 5 gün sıx meşələr və keçilməz yarğanlar arasından irəliləyib, ciddi mühafizə olunan Laçın dəhlizindən keçərək ətraf kəndləri mühasirəyə aldılar. Məlumata görə, xüsusi təyinatlılar şəhərə bir çox istiqamətdən və fərqli hədəflərə yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünüblər.

Həm ərazi, həm də seçilən marşrut nəqliyyat vasitələri üçün uyğun olmadığından Azərbaycan qüvvələri beş gün Şuşa istiqamətində piyada yol qət etməli idilər. Erməni komandanlığı Azərbaycan qoşunlarına Qırmızı Bazar ətrafında müqavimət göstərməyi hesablamışdı - oradan Şuşakəndə yol gedir, sonra isə həmin yol Şuşaya qalxırdı. Ermənistan ordusunun Azərbaycan qoşunlarının Şuşaya həmləsini gözlədiyi ikinci istiqamət isə Laçın istiqaməti idi. Lakin Azərbaycan ordusunun komandanlığı öz miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verir. Şuşaya sıx Qarabağ meşələrindən yeni yol açır. Böyük Tağlar kəndindən meşələrlə Şuşaya, Çanaqçı və Sığnax kəndlərinə doğru 3 gün ərzində 42 kilometr uzunluğunda buldozer və əllə yol açılır. Bununla mühəndis-istehkamçılar ensiz dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Nəticədə Azərbaycan bölmələri artilleriya qurğularını Çanaxçı ətrafına çəkə bilmişdi. Elə burada da yeni artilleriya dueli başladı. Azərbaycan dağ piyadalarının uğurlu hücumu qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı. Azərbaycan hərbçiləri Şuşaya girmək üçün çətin də olsa, qarşı tərəfin ağlına belə gəlməyən sıldırım qayaların olduğu istiqaməti seçdilər, onlar şəhərə qayalıqlara dırmaşmaqla qalxdılar. Erməni ordusu isə bütün gücünü şəhər istiqamətindəki əsas yollara cəmləmişdi. Çünki əsas hücumu bu yollardan gözləyirdi. Lakin Azərbaycan xüsusi təyinatlıları atəş dəstəyi olmadan sıldırım qayalıqlardan qalxdılar və yarğanlardan keçdilər. Noyabrın 5-də axşam saatlarında Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin bir qismi əsas yola çatdı və Şuşanın müdafiəsinə kömək etmək istəyən erməni əsgərlərini mühasirəyə ala bildilər. Bu, o demək idi ki, Ermənistandan Şuşaya yardımın gəlməsi artıq mümkün deyildi. Yəni Həkəri çayı üzərindəki əsas körpü də dağıdılmışdı və şəhər ən azı üç əsas istiqamətdən mühasirəyə alınmışdı. Noyabrın 6-da Azərbaycanın ordu birləşmələri şəhərin yaxınlığına çatdı. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin ovaxtkı rəhbəri Argişti Kərəmyan Qarabağdakı "vəzifələrinin" tamamlandığını qeyd edərək 6 noyabr səhər vaxtlarında Şuşanı tərk etdi. Bu xəbərdən bir müddət sonra Azərbaycan qüvvələri Şuşaya daxil oldu. Azərbaycan Ordusu şəhərə girdikdən sonra, ermənilərin müdafiəsinin zəiflədilməsi və ya əks-hücumların qarşısını almaq üçün ətrafda əlavə bloklayıcı mövqelər və pusqu yerləri qurdular. Azərbaycan ordusunun digər bölmələri də eyni vaxtda uğurlu əməliyyat edərək Şuşanın cənubunda yerləşən Daşaltı kəndini tutmaqla Şuşaya gedən əsas yola çıxışı təmin etmişdilər. 7 noyabrda Prezident İlham Əliyev şanlı Azərbaycan Ordusunun şəhərin cənub-şərqində, Xocalı rayonu ərazisində yerləşən Qarabulaq və Baharlı kəndlərini işğaldan azad etdiklərini açıqlamışdı.

Azərbaycan qüvvələri 7 noyabrda şəhərə daxil oldu. Əlavə olaraq, bir dəstə, Ermənistan tərəfi şəhərə əlavə dəstək göndərməsin deyə, Laçın dəhlizinin qarşısını almış, başqa bir dəstə isə Daşaltını işğaldan azad etdikdən sonra Şuşaya daxil olan qüvvələri atəş dəstəyi ilə təmin etmişdi. Azərbaycanın xüsusi təyinatlıları şəhərə girəndə müdafiə olunan ermənilərlə yaxın məsafədə ağır küçə döyüşlərinə başladılar. Noyabrın 7-də ərazidə hava dumanlı idi. Bu, Azərbaycanın havadan kəşfiyyat aparmaq imkanlarını, eləcə də hava zərbə vasitələrindən istifadəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Əlverişsiz hava şəraiti, həmçinin, "TB2 Bayraktar" pilotsuz uçan aparatlarından istifadəyə də mane olurdu. Belə bir şəraitdə Ermənistan qüvvələri zirehli maşınlarından - T-72 tanklarından və BMP-2 piyadaların döyüş maşınlarından maksimum istifadəni təmin etdi. Noyabrın 7-də səhər 09.00-da Şuşaya Ermənistan tərəfindən İsgəndər ballistik raketi atıldı. Raketin hədəfi azərbaycanlı hərbçilər idi. Amma raket Şuşaya yox, şəhərin yaxınlığına, erməni hərbçilərin çox olduğu yerə düşdü.

Əks hücuma baxmayaraq, Azərbaycan qüvvələri öz mövqelərini qorudular. Şuşa meşələrində müdafiə xətti qurdular və ermənilərin üç əks həmləsini dəf etdikdən sonra Şuşa İcra Hakimiyyətinin binasını ələ keçirərək erməni qüvvələrini qovmağa başladılar, şəhərdəki binaları və daha geniş əraziləri təmizlədilər. Şuşa uğrunda döyüşlər binadan binaya, yaxın məsafədən aparılırdı. Ermənistan qüvvələri günortadan sonra şəhərdən çıxarılmışdı- Şuşa azad edilmişdi.

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

8 noyabr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri kimi tarixə yazıldı. Həmin gün Şəhidlər Xiyabanından xalqına müraciət edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Şuşanın azad edilməsi müjdəsini verdi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"



Dövlət başçısı müraciətini belə bitirmişdi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"...

Xarici hərbi ekspertlər bu döyüşləri hələ də öyrənir...

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusu Vətən müharibəsində 30 ilə yaxın erməni quldurlarının tapdağı altında qalan hər bir şəhər və kəndin işğaldan azad edilməsində qəhrəmanlıq səhifəsi yazdı. İndi işğalçılara qarşı aparılan "Dəmir yumruq" əməliyyatı dünyanın qabaqcıl ölkələrinin hərb məktəblərində öyrənilir. Həmin sırada Şuşa uğrunda döyüşlər xüsusi yer tutur. Vurğulandığı kimi, şəhər təbii istehkam olduğundan oraya tank və digər ağır silahlarla girmək mümkün olmadı - alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla sıx meşələrdən, dərin dərələrdən keçərək, sıldırım qayalara, dağlara dırmaşaraq düşmənlə üzbəüz döyüşdə şəhəri azad ediblər. Xarici hərbi ekspertlərin də diqqət mərkəzində olan bu döyüşlər Azərbaycan Ordusunun əsgər və zabitlərinin yüksək döyüş taktikası seçməsinin, peşəkarlığının və vətənpərvərliyinin nəticəsi idi. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etdilər.

Şuşa döyüşləri xatirələrdə

Bu döyüşlərdə iştirak etmiş qəhrəmanlarımız da həmin günləri şərəflə xatırlayır. Ötiən illər ərzində mətbuata açıqlamalarında bu haqda danışan Şuşa qəhrəmanları ordumuzun gücünün, döyüş strategiyasının misilsizliyini ortaya qoyurlar. Hazırda Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kənan Seyidov bildirib ki, "Şuşa əməliyyatının olacağından məlumatımız var idi. Ona görə də çox yüksək səviyyədə hazırlığımız davam edirdi. Hətta Qarabağ ərazisinə oxşar əraziləri seçib orada yüksək səviyyədə hazırlıq keçirdik. Artıq əməliyyatın ilk günündə bir neçə saat keçəndən sonra Zəfər qazanacağımıza tam əmin idim. Şuşaya daxil olmamışdan əvvəl ətrafdakı yüksəkliklərdə idarəetmə məntəqələri seçmişdik və artıq bir neçə gün əvvəl şəhərə daxil olmuşduq.



Əlbəttə, uğurlu hərbi əməliyyatın aparıldığı Şuşada - bu gözəl məkanda yenidən olmaq bizim üçün qürurvericidir. Şuşanın 1992-ci ildə düşmən tərəfindən işğal olunması anını xatırlayıram. Şəhərə daxil olanda orada şiddətli döyüşlər gedirdi. Bizi artilleriya ilə vururdular və düşmənin çox böyük atəş dəstəyi var idi. Amma buna baxmayaraq fürsət tapan kimi ağlaya-ağlaya bir-birimizə sarılıb təbrik edirdik. O anları sözlərlə ifadə etməyə çətinlik çəkirəm. Bu çox gözəl hisslər idi..."

Şuşa döyüşlərinin iştirakçısı, polkovnik-leytenant Cəmil Əsədov əbədi və əzəli torpaqlarımızı işğaldan azad etməyimizi sevinc və qürur hissi ilə xatırladığını deyib: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin verdiyi döyüş əmrinə əsasən Şuşanı bütün çətinliklərə sinə gərərək azad etməyimiz bizim üçün əhəmiyyətli idi. Biz rabitə üzrə fəaliyyət göstərirdik. Lələtəpədən Şuşaya qədər bütün döyüşlərdə iştirak etmişəm. Vətən müharibəsi günlərində torpaqlarımızın ildırım sürəti ilə azad olunması əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaradırdı. Otuz ildir gözləyirdik ki, doğma torpaqlarımızı işğaldan azad edək, şükürlər olsun buna da nail olduq. Rəşadətli Ordumuz Şuşaya çətin yollardan və sıldırım qayalardan keçərək çatdı. Şuşanı beş kilometr uzaqdan belə görərkən döyüş əmrini gözləmədən oranı işğaldan azad etməyə can atırdıq. Çünki Şuşa Azərbaycanın qədim şəhərlərindən biri, Qarabağımızın baş tacı və döyünən ürəyidir".

Daşaltı istiqamətində döyüşlərdən bəhs edən baş gizir Seymur Qurbanov Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfərin xalqımızın tarixində yeni səhifə açdığını söyləyib. O, Şuşa istiqamətində döyüşlərdə iştirakı barədə danışaraq deyib: "Şuşa istiqamətində irəliləyərkən düşmənin bizi görməməsi üçün sıx meşəliklərdən keçərək Daşaltıya çatdıq. Ermənilər bizi intensiv atəşə tutduğundan dərələrdə gözləməli olduq. Bu zaman xeyli yaralanan əsgərlər oldu və biz onları həmin ərazidən çıxardıq.

Sonra bizə Şuşa istiqamətində rabitə əlaqəsi yaratmaq barədə komanda gəldi. Teleqülləyə qalxdıq. Ora çatanda düşmən dronunun başımızın üstündə hərəkət etdiyini gördük. Bizi vurmağa, irəliləməyə mane olmağa çalışırdılar. Buna baxmayaraq, verilən tapşırığı yerinə yetirdik, Şuşa istiqamətində rabitə əlaqəsi yaratdıq. Zabit və əsgərlərimizin şücaəti nəticəsində Şuşa tam işğaldan azad olundu və düşmən tamamilə torpaqlarımızdan qovuldu".

Şuşanın dağlıq ərazidə yerləşdiyini vurğulayan polkovnik Habil Cümşüdov bildirib ki, Şuşa əməliyyatı nəinki Azərbaycan, həmçinin dünya hərb tarixində xüsusi yer tutur. Bu hərbi əməliyyatda xüsusi təyinatlıların rolunu qeyd etmək lazımdır. Bütün çətinliklərə və əzab-əziyyətə baxmayaraq, qarşıya qoyulmuş məqsədə nail olundu. Çünki xalqımız 30 il idi ki, Şuşanın azad olunması arzusu ilə yaşayırdı. Ona görə əsgər və zabitlərimiz o qədər ürəklə və həvəslə ölümü belə göz ardına alaraq bu əməliyyatın uğurla yekunlaşmasına töhfə verməyə can atırdı. Belə ərazidə əsgərlərin, zabitlərin çətinliklərə baxmayaraq düşmənə qalib gəlməsi qürurvericidir. "Şükürlər olsun ki, biz qarşımıza qoyulan məqsədə çatdıq. Bunu hər kəs bilməlidir ki, bu Qələbə yalnız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Qələbəsi deyildi. Bu, bütün Azərbaycan xalqının Qələbəsi idi. Qırx dörd gün davam edən müharibədə xalqımız Ordumuzu, dövlətimizin başçısının uğurlu siyasətini fəal şəkildə dəstəklədi. Müzəffər Ali Baş Komandanımızın "Dəmir yumruğ"u, onun iradəsi, apardığı siyasət bizim məqsədimizə nail olmağımıza böyük təkan verdi. İkinci Qarabağ müharibəsində üç minə yaxın şəhid Vətən uğrunda canını qurban verdi. Təbii ki, şəhidsiz torpaq almaq qeyri-mümkündür. Ancaq biz, bir evdən iki şəhid verib, "Ana Vətən sağ olsun" deyən xalqın nümayəndələriyik. Təbii ki, elə bir xalqın oğlu, Ordusu da bu Zəfəri əldə etməli idi".

Şuşa dirçəlir, yenidən qurulur...

Bəli, ötən 6 ildə Şuşa yenidən dirçəldi, yenidən quruldu, öz keçmiş əzəmətini, gözəlliyini, vüqarını geri qaytardı. Şuşa şəhərində bir sıra mühüm infrastruktur layihələri icra olunub. Bunlardan biri də igid oğullarımızın Şuşaya doğru dağların, meşələrin qoynu ilə irəliləyərək açdığı cığır boyu avtomobil yoludur. Prezident İlham Əliyev Şuşaya 101 kilometrlik uzunluğu olan bu yolu "Zəfər Yolu" adlandırıb.

Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, tarixi-mədəni abidələrlə zəngin şəhər, hərbi-strateji əhəmiyyətli qaladır. Burada bütün bərpa-quruculuq işləri planlı şəkildə aparılır, Şuşanın tarixi siması saxlanılır. Artıq bir çox abidələr bərpa olunub, "Xarıbülbül" və "Qarabağ" otelləri yenidənqurmadan sonra istifadəyə verilib, modul tipli xəstəxana fəaliyyətə başlayıb. Bərpa işlərinin sürəti deməyə əsas verir ki, çox keçmədən Şuşa nəinki Azərbaycanın, eləcə də dünyanın ən gözəl şəhərlərindən biri olacaq. Xalqımız qədim Şuşanın, eləcə də Qarabağın bu xoş günləri üçün qəhrəman hərbçilərimizə borcludur...

Pərviz SADAYOĞLU

Zəfər iqtisadiyyatının yeni səhifəsi

Son 6 ildə ölkəmizin iqtisadi inkişafı daha da sürətlənib

Tarixi Zəfərlə öz ərazi bütövlüyünü təmin edən Azərbaycan 2020-ci ildən sonrakı dövrdə yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük inkişaf transformasiyasına daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, habelə sosial paketlərin ardıcıl şəkildə reallaşmasını təmin edərək xalqın maddi rifahının yüksəlməsinə səbəb olub.

Azərbaycan son 6 ildə dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlət kimi öz yerini daha da möhkəmləndirib. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf vektorunu müəyyən edən və dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu təmin edib.

ÜDM-in həcmi son 72,5 milyard manatdan 129,1 milyard manata çatıb

2020-ci ildən sonrakı dövrdə milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə effektiv inteqrasiya edilib. Azərbaycan 4-cü Sənaye İnqilabının aktiv mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Ötən 6 ilə yaxın dövr ərzində milli iqtisadiyyat 10 faizdən çox böyüyüb. 2020-ci ildə ölkədə 72,5 milyard manata bərabər olan ümumi daxili məhsulun (ÜDM) həcmi 2025-ci lin sonunda 129,1 milyard manata çatıb. Qeyri-neft ÜDM daha çox böyüyərək milli iqtisadiyyatın əsas aparıcı sütunlarını təşkil etməkdədir.

Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir, regionda əlavə dəyərin ümumi həcminin 65 faizindən çoxu Azərbaycanın payına düşür. Həmçinin, maliyyə-büdcə ehtiyatlarının böyük əksəriyyəti Azərbaycanın payına düşür, 2026-cü il üzrə Cənubi Qafqaz ölkələrinin birlikdə büdcə resursları 44,5 milyard dollar təşkil edir ki, onun 26 milyard dolları və ya 62,5 faizi Azərbaycanın, qalan 37,5 faizi digər 2 ölkənin sərəncamındadır.



Büdcədə hərbi xərclər 6 ildə 2 dəfədən çox artıb

Dövlət büdcəsinin gəlirləri ötən 6 il ərzində 2 dəfəyə yaxın artaraq 24 milyard manatdan 39,9 milyard manata çatıb. Büdcədə hərbi xərclərin həcmi 2 dəfədən çox artıb. 2020-ci ildə 3,8 milyard manat təşkil edən müdafiə xərclərinin həcmi 2026-cı ildə 8,5 milyard manatı ötüb, 2027-ci ildə 9 milyard manata yaxınlaşacaq. Büdcədə hərbi xərclərin artması Silahlı Qüvvələrimizin qüdrətini daha da gücləndirib. Ordunun döyüş qabiliyyəti möhkəmlənib, müasir silah-sursat, texnika ilə təchiz edilib.

Ölkəmizin starteji valyuta ehtiyatlarının həcmi 90 milyard dollara çatıb. İqtisadiyyata 350 milyard dollar investisya yatırılıb.

Bu dövrdə sosial sahədə də əhəmiyyətli nailiyyətlər əldə olunub. 2020-ci ildə 707 manata bərabər olan orta aylıq əməkhaqqının məbləği hazırda 1180 manata yüksəlib. Minimum əməkhaqqı 2020-ci ilədki 250 manatdan 2025-ci ildə 400 manata yüksəlməklə son 6 ildə 40 faiz artıb. Minimum pensiya 320 manata, orta aylıq pensiya 650 manatadək yüksəlib.

Azərbaycan Cənubi Qafqazın sülh və rifah körpüsünü inşa edir

Azərbaycan yeni siyasi çağırışlar fonunda Cənubi Qafqazın sülh və rifah körpüsünü inşa edir, digər coğrafiyalarla geniş inteqrasiyasının müasir modelini qurur. Regionun nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsi, Zəngəzur dəhlizinin açılması və Azərbaycanın Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzinə çevrilməsi istiqamətində qətiyyətli addımlar atılmaqdadır.

2025-ci il 7-8 avqust tarixlərində Prezident İlham Əliyevin ABŞ-a səfəri və səfər zamanı Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Sammitinin keçirilməsi və Birgə Bəyannamənin imzalanması regionda geniş əməkdaşlıq və rifah quruculuğu üçün dərin sütunlar formalaşdırmaqda, nəqliyyat kommunikasiyalarının açılmasına zəmin yaratmaqdadır. Razılaşmaya uyğun olaraq "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" (Zəngəzur dəhlizi) yaradılması istiqamətində praktiki işlər həyata keçirilir. Münaqişənin köhnə qalıqları olan Minsk Prosesi və onun əlaqədar strukturlarının ləğvi yeni münbit siyasi-iqtisadi bağlantıları təmin edəcək humanitar arxitektura formalaşdırır. Yeni İpək Yolu magistralının əsas qovşağı sayılan Zəngəzur dəhlizinin reallaşması ilə Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığın qarantına çevriləcək.

Rəqəmsal iqtisadiyyat dövründə yeni inkişaf gözləntiləri

Azərbaycan dövləti yeni dövrdə müasir nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə ölkəmizin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması hədəflənir. Məhz bu məqsədlə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" sənədləri təsdiq olunub və icra edilməkdədir. Bu Strategiyanın reallaşması ortamüddətli dövrdə ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcək.

E.CƏFƏRLİ

Şuşada tamamlanan həsrət...

Vətənpərvərlik bizi necə qalib etdi?



"Zəfər yalnız keçmişimizin qüruru deyil, gələcəyimizin məsuliyyətidir" - Vətən Müharibəsi Qəhrəmanı

Vətənpərvərlik bəzən bir əsgərin səngərdə dayanan cəsarətində, bəzən bir ananın övladını Vətənə əmanət etməsində, bəzən də minlərlə insanın eyni amal ətrafında bir yumruq kimi birləşməsində özünü göstərir. 2020-ci ilin payızında Azərbaycan xalqı bu hissin nə qədər böyük gücə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. 44 gün ərzində cəbhədə döyüşən əsgərlə arxa cəbhədə onun qələbəsinə inanan vətəndaş arasında görünməz, lakin qırılmaz bir bağ var idi. Hər kəsin ürəyində eyni arzu, dilində eyni dua, düşüncəsində eyni məqsəd yaşayırdı: torpaqlarımız azad olunsun, üçrəngli bayrağımız doğma yurdlarımızda dalğalansın!

Elə tarixlər var ki, onlar sadəcə təqvimdəki günlər deyil, xalqın yaddaşına qürurla həkk olunan, nəsildən-nəslə ötürülən böyük qələbələrin rəmzinə çevrilir. 8 Noyabr - Zəfər Günü də Azərbaycan üçün məhz belə bir tarixdir. Bu gün xalqımızın qürurunun, ordumuzun qəhrəmanlığının, şəhidlərimizin müqəddəs xatirəsinin və illərlə sönməyən Vətən həsrətinin qələbə ilə nəticələndiyi gündür.

Zəfər tarixi xalqın iradəsi ilə yazıldı

Zəfərimizin 6-cı ildönümü ərəfəsində Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Zaur Hüseynov 44 günlük müharibədəki xatirələrini "Yeni Azərbaycan"la bölüşüb. O, qeyd edib ki, möhtəşəm Qələbəmizin arxasında onilliklərin mübarizəsi, xalqın iradəsi və Azərbaycan əsgərinin fədakarlığı dayanır:

"Altı il əvvəl Azərbaycan Ordusunun döyüş meydanında qazandığı tarixi Qələbə xalqımızın otuz ilə yaxın davam edən yurd həsrətinə son qoydu, dövlətimizin ərazi bütövlüyünün bərpasını təmin etdi və tariximizdə yeni bir mərhələnin əsasını qoydu. Lakin Zəfərin əsl mahiyyətini anlamaq üçün yalnız 2020-ci ilin 44 gününə deyil, Azərbaycan xalqının həmin Qələbəyə qədər keçdiyi uzun və çətin yola nəzər salmaq lazımdır. Zəfər Günü təkcə qazanılmış Qələbəni qeyd etmək deyil, həm də xalq olaraq keçdiyimiz yolu dəyərləndirmək və gələcək qarşısında məsuliyyətimizi dərk etmək üçün mühüm tarixi fürsətdir. Bəzən Vətən müharibəsindən danışarkən yalnız 44 günü xatırlayırıq. Halbuki həmin 44 günün arxasında onilliklərin mübarizəsi, xalqın çəkdiyi əzablar, dövlət quruculuğu, ordumuzun illərlə davam edən hazırlığı və Azərbaycan əsgərinin böyük fədakarlığı dayanır. Bu Zəfərin qiymətini bilmək üçün özümüzə üç vacib sual verməliyik: Biz haradan gəlmişik? Bu gün haradayıq? Və bundan sonrakı məsuliyyətimiz nədir?".

Bu günlərə asan gəlməmişik...

Z.Hüseynovun sözlərinə görə, müasir Azərbaycanın keçdiyi inkişaf yolunu müstəqilliyimizin ilk illərində yaşanan ağır hadisələrdən ayrı təsəvvür etmək mümkün deyil: "Biz bu günlərə asan gəlməmişik. Qanlı 20 Yanvar faciəsindən, Xocalının fəryadından, Birinci Qarabağ müharibəsinin ağrılarından keçmişik. Yurd-yuvasından didərgin düşmüş yüz minlərlə soydaşımızın həsrətini, şəhid ailələrinin kədərini yaşamışıq. Dövlətimizin müstəqilliyini yenicə bərpa etdiyi, gələcəyimizin qeyri-müəyyən olduğu, ordumuzun ciddi çətinliklərlə üzləşdiyi illərdən gəlmişik. Çörək növbələrini, işıqsız evləri, insanların sabaha narahatlıqla baxdığı günləri görmüşük. Mənim üçün bunlar yalnız tarix kitablarında yazılan hadisələr deyil. Mən də həmin dövrün çətinliklərini yaşamış nəslin nümayəndəsiyəm. Ona görə düşünürəm ki, bu gün sahib olduğumuz güclü dövlətin qiymətini bilmək üçün keçmişimizi unutmamalıyıq".

Apreldən Şuşaya uzanan döyüş yolu

Z.Hüseynov üçün Zəfərə gedən yolun mühüm mərhələlərindən biri 2016-cı ilin Aprel döyüşləri olub. Həmin döyüşlərdə Talış kəndi istiqamətində iştirak edən zabit o günləri xüsusi hisslərlə xatırlayır:

"2016-cı ilin Aprel döyüşləri zamanı bizim bölməmiz Talış istiqamətində döyüşürdü. O zaman heç birimiz döyüşlərin bir neçə gündən sonra dayanacağını bilmirdik. Düşünürdük ki, artıq torpaqlarımızın azadlığı uğrunda həlledici savaş başlayıb və sona qədər davam edəcək. Dörd gündən sonra silahlar susdu, amma bizim içimizdəki mübarizə dayanmadı. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda atılan ilk mərmini mən sanki 2016-cı ilin Aprel döyüşlərində atılmış son mərminin davamı kimi hiss etdim. Elə bil zaman dörd il dayanmış, sentyabrın 27-də isə yenidən hərəkətə gəlmişdi".

Onun sözlərinə görə, Aprel döyüşlərinin ən mühüm nəticələrindən biri Azərbaycan Ordusunun öz gücünə olan inamının daha da möhkəmlənməsi idi: "2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşləri, generalmayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər hərbçilərimizin şəhadəti isə xalqın mübarizə əzmini daha da gücləndirdi. Minlərlə insanın orduya dəstək nümayiş etdirməsi, gənclərin könüllü şəkildə hərbi xidmətə can atması Azərbaycan cəmiyyətindəki milli birliyin təzahürünə çevrildi.

Nəhayət, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi xalqımızın uzun illər gözlədiyi tarixi dönüş nöqtəsi oldu".

Tarixin dəyişdiyi gün...

Vətən Müharibəsi Qəhrəmanı hesab edir ki, Şuşanın azad olunması həm hərbi-strateji, həm də milli-mənəvi baxımdan müharibənin ən mühüm hadisələrindən biri idi:

"Şuşada qazanılan Qələbə Azərbaycan Ordusunun yüksək döyüş hazırlığını və əsgərlərimizin sarsılmaz iradəsini nümayiş etdirməklə yanaşı, müharibənin taleyini müəyyənləşdirən həlledici hadisəyə çevrildi.

Şuşa bizim üçün yalnız strateji yüksəklik və ya mühüm şəhər deyildi. Şuşa xalqımızın milli yaddaşı, mədəniyyəti, qüruru və otuz ilə yaxın ürəyində daşıdığı həsrət idi. Biz o şəhərə doğru irəliləyərkən təkcə hərbi tapşırığı yerinə yetirmirdik. Xalqımızınn yarımçıq qalmış arzusunun gerçəkləşməsi uğrunda döyüşürdük".

Hər addımı qəhrəmanlıq, hər anı məsuliyyət!

Cəbrayıl, Hadrut, Füzuli, Xocavənd və Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak edən Z.Hüseynov həmin günləri həyatının ən şərəfli və eyni zamanda ən məsuliyyətli dövrü kimi qiymətləndirir:

"Şuşaya gedən yol sadəcə xəritə üzərində müəyyən edilmiş hərbi marşrut deyildi. O yol meşələrdən, dağlardan, sıldırım qayalardan, gecəsiz-gündüzsüz döyüşlərdən keçirdi. O yolun hər addımında Azərbaycan əsgərinin iradəsi, şəhidlərimizin qanı, xalqımızın otuz illik həsrəti var idi. Biz bilirdik ki, arxamızda güclü Azərbaycan dövləti, bizə inanan bir xalq dayanıb. Qarşımıza qoyulan döyüş tapşırıqlarının arxasında isə Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi və Azərbaycan xalqının öz torpaqlarına qayıtmaq arzusu dayanırdı".

Şuşanın hər daşında bir qələbə tarixi var...

Z.Hüseynov qeyd edib ki, Zəfər Gününün qeyd olunmasında ən mühüm məsələlərdən biri tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsidir. Çünki illər keçdikcə müharibənin canlı şahidlərinin sayı azalacaq, yeni nəsillər isə azad edilmiş torpaqları artıq gündəlik həyatlarının təbii bir hissəsi kimi qəbul edəcəklər: "Bir vaxtlar Şuşanın adını çəkəndə insanların gözləri dolurdu. Otuz ilə yaxın soydaşlarımız o şəhərə qayıdacaqları günü xəyal edirdilər. Bu gün isə biz Şuşaya gedirik, küçələrində gəzirik, orada Azərbaycan Bayrağının dalğalandığını görürük. Bu, böyük xoşbəxtlikdir. Amma sabah övladlarımız Şuşaya gedib yalnız gözəl bir şəhər görəcəklərsə, onun hansı qiymətə azad edildiyini bilməyəcəklərsə, deməli, biz onlara Vətənin torpağını vermiş, lakin tarixi yaddaşını ötürə bilməmişik".

tariximizin son nöqtəsi deyil. Zəfər Azərbaycanın yeni tarixinin başlanğıcıdır.

Bizə bu Qələbəni bəxş edən şəhidlərimizin xatirəsini yaşatmaq, onların uğrunda canlarından keçdikləri Vətəni qorumaq, gücləndirmək və gələcək nəsillərə daha qüdrətli şəkildə təhvil vermək hər birimizin mənəvi borcudur. Məhz bu məsuliyyəti dərk etdiyimiz müddətdə Zəfərimiz yalnız tarixdə qalmayacaq, Azərbaycanın gələcəyində də yaşayacaq!".

Yeganə BAYRAMOVA

Ordunu gücləndirən xalqın inamıdır

Sonda Vətən Müharibəsi Qəhrəmanı vurğulayıb ki, Azərbaycan xalqının tarixi Qələbəsinin təməlində xalq, dövlət və Ordu arasındakı sarsılmaz birlik dayanır:

"Torpağı əsgər qoruyur, əsgəri xalq yetişdirir, Ordunu dövlət gücləndirir. Bütün bunları birləşdirən isə xalqın öz dövlətinə olan inamıdır.


Biz çox ağır yollardan keçərək bu günə gəlib çatmışıq. Bu gün başımız dikdir, bayrağımız yüksəklərdədir, dövlətimiz öz torpaqlarının sahibidir.

Amma unutmamalıyıq ki, Zəfər

Vətən müharibəsində jurnalistlərimiz...

Kimisi qələmi ilə, kimi də silahla döyüşdü

Azərbaycan jurnalistləri 44 günlük Vətən müharibəsi zamanı informasiya cəbhəsində mühüm və məsuliyyətli missiya həyata keçirib. Belə ki, kütləvi informasiya vasitələrinin nümayəndələri döyüş bölgəsindən operativ xəbərlər, foto və video-məlumatlar hazırlayaraq həqiqətləri dünya ictimaiyyətinə çatdırıblar. Eyni zamanda, işğalçı Ermənistanın təxribatlarının və yalan məlumatlarının qarşısının alınmasında, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq mediada işıqlandırılmasında media işçilərinin böyük rolu olub.



27 jurnalist döyüşlərdə iştirak edib

Ümumiyyətlə, Birinci və İkinci Qarabağ müharibələrində yüzlərlə jurnalist informasiya cəbhəsində vuruşub. Onların arasında xidməti vəzifələrini yerinə yetirərkən həlak olan jurnalistlər də var. Peşə fəaliyyətlərini yerinə yetirən zaman şəhid olan həmkarlarımızın adları Qarabağ zəfərinin qəhrəmanları sırasına qızıl hərflərlə həkk olunub. Bəziləri Birinci Qarabağ müharibəsi, bəziləri isə İkinci Qarabağ müharibəsi zamanı şəhid olublar. Məhz bunun nəticəsində də cəbhədəki kimi informasiya savaşında da qalib tərəf olduq. Ermənilər Birinci Qarabağ müharibəsindən fərqli olaraq, Vətən müharibəsində öz yalanları, uydurma faktları və hiylələri ilə dünyanı aldada bilmədilər. Bu müharibə jurnalistikamız üçün də bir sınaq oldu. Hamı bir nəfər kimi cəbhədən gələcək xəbərləri gözləyirdi. Azərbaycan jurnalistləri həqiqətləri dünyaya çatdırmaqla, səngərdəki əsgərlər qədər iş görüblər. Jurnalistlər xəbərləri əldə etməyin çətin olduğu bir vaxtda belə dünyanın müxtəlif media kanallarına məlumatlar ötürürdülər.

Müharibə zamanı düşmən ordusu dinc əhali və dövlət binaları ilə yanaşı, cəbhə bölgəsində fəaliyyət göstərən media nümayəndələrini də hədəfə alırdı. Media nümayəndələrinə qarşı hücumların görüntüləri kifayət qədər yayılsa da, beynəlxalq ictimaiyyət baş verənlərə susqunluq nümayiş etdirmişdi. heç bir münasibət bildirmədi. Bu təşkilatlar vəziyyətlə bağlı real və qərəzsiz mövqe göstərmək əvəzinə susqunluq nümayiş etdirirdilər. Cenevrə Konvensiyasına əsasən silahlı münaqişə zonalarında işləyən jurnalistlər iki kateqoriyaya bölünürlər: hərbi müxbirlər və münaqişə zonasına ezam edilmiş jurnalistlər. Beynəlxalq humanitar hüququn əsaslarına görə münaqişə zonasında hər iki kateqoriyadan olan jurnalistlər mülki şəxs statusundadırlar. Ona görə də, ermənilər tərəfindən jurnalistlərimizin də hədəf alınması beynəlxalq hüquqa tamamilə ziddir.

Vətən müharibəsində bir çox jurnalist və operator birbaşa müharibənin gedişatını müxtəlif istiqamətlərdən işıqlandırıb, bəziləri isə həm də döyüşlərdə iştirak edərək qazi olublar. Belə ki, bu dövrdə 27 nəfər jurnalist ehtiyatda olan zabit və digər kateqoriyalar qismində səfərbərlik proqramına cəlb edilərək cəbhə xəttinə göndərilib. Onlardan 2 nəfər döyüşlər zamanı yaralanıb. 1 nəfər - ATV telekanalının keçmiş montajçı-əməkdaşı Davud Qurbanov 2020-ci oktyabrın 5-də şəhid olub.

Vətən müharibəsinin bitməsindən sonra da media nümayəndələri işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən erməni terrorunun qurbanı olublar. Belə ki, 4 iyun 2021-ci ildə Kəlbəcər rayonunun Susuzluq kəndində mina partlayışı nəticəsində AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov şəhid olublar.

Jurnalist Məğrur Əli Polad döyüşə doğulduğu rayondan başlayıb

İkinci Qarabağ müharibəsinin iştirakçısı olan jurnalistlərdən biri də "Təbib" qəzetinin baş redaktoru Məğrur Əli Poladdır. "Hər bir azərbaycanlının ən böyük arzusu Qarabağın işğaldan azad olunması idi. Bu arzu Qarabağ sakinləri üçün isə bir başqa idi, mən özüm də Füzuli rayonundan məcburi köçkün olmuşam. Yəni bizim üçün bu məsələ ikiqat əhəmiyyət daşıyırdı" - deyən Məğrur Əli Polad Vətən müharibəsində baş leytenant kimi iştirak edib. O, 2020-ci il sentyabrın 21-də ehtiyatda olan bir qrup hərbçilərin təlim məqsədilə ordu sıralarına çağırılıb: "Amma içimizdə bir hiss var idi ki, bu dəfə başqa olacaq. Sentyabrın 27-də isə ön xəttə yerləşən artilleriya bölməsinin zabiti kimi mən də mövqemi tutdum. Səhər saat 7-də isə atəş əmri verildi. Beləcə, Vətən müharibəsinə başladıq. Mən və silahdaşlarım Füzuli rayonunun Alxanlı kəndi istiqamətində mövqe tutmuşduq. Ardınca Cəbrayıl, Hadrut, Tuğ, Qubadlı, Şuşa... bu istiqamətlərdə döyüş yolum davam elədi. Müharibə həyatını, oradakı vəziyyəti, situasiyanı, keçirdiyimiz hissləri ifadə eləmək çətindir, dünyanın ən yaxşı qələm sahibi olsan da, yenə mümkün deyil. Atəş əmrini biz bayram xəbəri kimi qarşıladıq, sadəcə, bunu deyə bilərəm. Elə bil bizə illərlə gözlədiyimiz nəsə bir şad xəbər verilmişdi. Bizimlə çiyin-çiyinə döyüşən gənc nəsil də eyni istəklə döyüşə atılmışdı. Yəni heç kəsin gözündə qorxu, yaralanmaq, ölmək qorxusu yox idi. Bizə lazım olan əmr idi, həmin əmr verilmişdi, bundan sonrası isə məhz bizim işimiz idi".

Həmkarımız Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində doğulub, orada böyüyüb. 1993-cü ildə kənd işğal olunsa da, doğma yurdun sevgisi, xəyalı ilə yaşayıb, oraya qayıdış gününü gözləyib. Taleyin qisməti də belə olub ki, müharibə zamanı Məğrur bəy doğma kəndləri istiqamətində döyüşlərdə də iştirak edib: "Böyük xoşbəxtlikdir ki, kəndimizin işğaldan azad olunmasında da əməyim var. Sonralar hətta hərbi yerdəyişmə zamanı doğma kəndimizin içərisindən də keçdik. Düzdür, vaxt çox deyildi, amma oradan keçmək belə təzədən həmin illəri xatırlamağıma bəs elədi. Evimiz, kənd qəbiristanlığı, məktəbimiz... hamısı yerlə-bir edilmişdi, erməni vəhşiliyi qəbirləri belə alt-üst eləmişdi".

Müharibədə yaralanan iki jurnalistdən biri...

Məğrur Əli Polad müharibə zamanı yaralanan iki həmkarımızdan biridir. O, yaralanmasını belə nəql edir: "Ümumiyyətlə, istər mən olum, istər digər hərbçi yoldaşlarım, adətən, o qədər də ciddi, ağır olmayan yaraları dilə gətirmirdik. Yəni ayaq üstə dura biliriksə, yıxılmırıqsa, döyüşə biliriksə, özümüzə yaralı demirdik. Məndə qəlpə yarası deyildi, yanımda mərmi partlamışdı, kontuziya almışdım. Eyni zamanda dizimdən yaralanmışdım. Partlayışdan bir neçə saat sonra ayıldım, qulağımdan qan açılmışdı. Baxdım ki, o qədər də ciddi məsələ deyil, ona görə də üstünü vurmadım və döyüşə davam elədim. Sonralar yavaş-yavaş hiss etdim ki, səhhətimdə müəyyən problemlər var. 10 noyabr üçtərəfli bəyanatı imzalanandan sonra döyüşlər dayandırldı, bundan sonra həkimə müraciət elədim, məni hərbi hospitala göndərdilər".

"Bu il 44 günlük müharibənin zəfərlə başa çatmasının altıncı ili tamam olur. Mənim üçün ərazi bütövlüyü bərpa olunmuş, bütöv, qüdrətli Azərbaycanın vətəndaşı olmaq böyük qürur hissidir. Eyni zamanda, müharibə itkisiz olmur, şəhidlərimizə görə çox üzülürük. Onlar qəlbimizdə əbədi yaşayacaq, gələcək nəsillər üçün isə qürur mənbəyi olacaqlar. Mənim üçün torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək böyük xoşbəxtlikdir" - deyə həmkarımız vurğulayıb.

Qeyd edək ki, Məğrur Əli Polad Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə 4 medalla - "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən müharibəsində iştiraka görə" medalları ilə təltif olunub.

Nardar BAYRAMLI

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





Zəfər nəğmələri

Bu dünyanın dərdləri sanki bizə görədir,
Birindən qurtulmamış başqasını törədir.
Sülhdən dəm vuranların cəllad çıxır çoxusu,
Bütün qəsbkarların ağzında qan qoxusu...
Qara itlər qorunur, ağ atlar izlənirkən,
Qartalları vururlar, bayquşlar gizlənirkən...
Yurdun aşiqlərini seçib dən-dən vurdular,
Gözlərindən qorxanlar
ürəyindən vurdular..
Rahat uyu, şəhidim...
Yollara həsrət - həsrət dikiləndə gözlərim,
dünyanın boğazından keçməyəndə sözlərim,
Cəbhədə don tuturdu sənin ayaq izlərin...
Qış gəlirdi dağlara...
Qarabağda sazaqdı,
Səninsə gözlərindən günəşli bir yaz axdı...
Artıq nəfəsin həyat ritmindən çox uzaqdı...
Uzağa dikilmişdi o anda nəzərlərin..
Gözə vətən dəyirdi...
Qəlbin odu sönmədən ruhun gülümsəyirdi...
Rahat uyu, şəhidim...
Savaşın davam edir,
Bayrağına, himninə neçə dostun əyildi...
Gözünü itirən var,
qolu yoxdur kiminsə...
...Ruhum bu son yaradan ölüncə qan itirsə...
Sən də ordan gülümsə..
Rahat uyu, şəhidim...

BU ZƏFƏRİN MÜBARƏKDİR, EY VƏTƏN

Qış günündə üzdə çiçək açdıran,
Gecəmizə gün işığı saçdıran,
Yağıları el-obadan qaçdıran
Bu zəfərin mübarəkdir, ey vətən!
Səman geniş hey uçduqca uçasan,
Torpağını ana kimi qucasan,
Qələbənlə Qaf dağından ucasan,
Bu zəfərin mübarəkdir, ey vətən!
Olmaz imiş, sözdür, dostu düşənin,
Dostu aldı qəlbin “qəlbişüşənin”,
Söylənəcək yüz il fəthi Şuşanın,
Bu zəfərin mübarəkdir, ey vətən!
Haqq deyənlər, haqq yolundan azdılar,
Tarix boyu sənə quyu qazdılar,
..Oğulların şanlı tarix yazdılar,
Bu zəfərin mübarəkdir, ey vətən!
Qürurluydu bu Qarabağ səfəri...
Bu torpağın hər oğlu, hər nəfəri,
Qanımızla qazanmışıq zəfəri,
Bu zəfərin mübarəkdir, ey vətən!
Şuşamızda dağlar başı dumanlı,
Daha bir də kimsə olmaz gümanlı,
Qazin rəşadətli, Şəhidin sanlı,
Bu zəfərin mübarəkdir, ey vətən!
Xarı bülbül gələr bu yaz, səcdənə,
Dursam min il, yenə də az, səcdənə,
Dayanıbdı bütün Qafqaz səcdənə,
Bu zəfərin mübarəkdir, ey vətən!

Adilə Nəzər

***

İllərlə səbr edib dözdü xalqımız,
Bilirdi bu həsrət bir gün bitəcək.
Qarabağ düşməndən azad edildi,
Azərbaycan, zəfər günün mübarək!

Bilsin şəhidlər və bilsin qazilər:
Tökülən o qanlar olmadı hədər.
44 günə oldu möhtəşəm zəfər,
Qarabağ bizimdi, hamı biləcək.
Azərbaycan, zəfər günün mübarək!
Qanla tarix yazdı şanlı ordumuz,
Zəfərlə taclandı milli ruhumuz.
Özünə qayıtdı cənnət yurdumuz,
Qarabağım çiçəklənəcək.
Azərbaycan, zəfər günün mübarək!

Dastan yazdı hər zabitin, əsgərin,
Dağıtdı düşmənin postun, səngərin.
Qarşında diz çökdü mənfur düşmənin,
Hər zaman qarşında tir-tir əsəcək.
Azərbaycan, zəfər günün mübarək!

Var xalqımın müzəffər sərkərdəsi,
Qılıncdan itidi onun kəlməsi.
Bəs eyləyər döyüş əmri verməsi,
Dəmir yumruq yenidən birləşəcək.
Azərbaycan, zəfər günün mübarək!

Minlərlə şəhidlər, bunca qazilər,
Nə də gördüyümüz o faciələr...
Nə qədər üstündən keçsə də illər,
Heç vaxt yaddaşlardan silinməyəcək.
Azərbaycan, zəfər günün mübarək!

Elxanoğlu deyir - Gəlin, səbr edək,
Otuz il dözmüşük, beş il də dözək.
Yenə də düşmənlər ağıllanmasa,
Ordumuzu İrəvanda görəcək.
Azərbaycan, zəfər günün mübarək!

Elvin Elxanoğlu

***

Səhra könülləri bağa döndərən
Xəbər sevgisidir Vətən sevgisi.
“Lələtəpə”ləri dağa döndərən
Zəfər sevgisidir Vətən sevgisi.

Üzünə qələbə günəşi gülər,
Qəlblərə məhəbbət şəfəqi çilər,
Güllərdən boylanar, göylərdən gələr,
Səhər sevgisidir Vətən sevgisi.

Halal süfrəmizdir bu Mil, bu Muğan,
Vətən ər böyüdən, Ana - ər doğan!
İgid babaların bizə ərməğan,
Özəl sevgisidir Vətən sevgisi.

Odur sevdamızın ruhuna qanad,
Bir dəmir qəfəsdir onsuz bu həyat.
Bu Göygöl, Maralgöl, Marxal, Batabat,
Xəzər sevgisidir Vətən sevgisi.

Baş olsun! - Çəkməsin başım çəkəni,
Torpağım çəkəni, daşım çəkəni,
Yazağzı “Sərsəng”dən daşıb güclənir,
Tərtər sevgisidir Vətən sevgisi.

Kor olsun bu günü görə bilməyən,
“Can” deyib canını verə bilməyən!..
Qisas almayınca qına girməyən,
Xəncər sevgisidir Vətən sevgisi.

Onun hər tərəfi, hər yanı səngər,
Uçqunu, daşqını, yarğanı səngər.
Döşəyi səngərdir, yorğanı səngər,
Səngər sevgisidir Vətən sevgisi.

Özünü şəhidlik oduna atan,
Solduqca çoxalan, öldükcə artan,
Vətən bayrağına bükülüb yatan,
Əsgər sevgisidir Vətən sevgisi.

Əşrəf Veysəlli

***

Köksümüzün üstündə bir vətən daşıyırıq,
Qalibiyyət qazanıb qürurla yaşayırıq,
İndi artıq hamımız vətənə oxşayırıq,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Bu millət cəsurların hünərindən ruhlanır,
Atdıqları addımla zirvələrə yollanır,
Uğurları tükənməz qələbədə canlanır,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Öz qızı, öz oğluyla Azərbaycan öyünür,
Qəhrəman insanları döyüş ruhu geyinir,
Bu xalqın ürəyində Azərbaycan döyünür,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Yurdumuz öz xilaskar Oğluna arxalandı,
Bayrağımız hər qarış torpaqda dalğalandı,
Hər Vətən övladının nəfəsində, canında,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Yaşamaq nə çətinmiş qəfəslərin içində,
Qarabağ nəfəs alır nəfəslərin içində,
BİZ QALİBİK - hayqıran gur səslərin içində,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Uğrunda qan tökülən torpaq gözləri üstə,
Ürəklər, canlar, ruhlar durub sözləri üstə,
Yenə dua edilir qalib dizləri üstə,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Şəhidlərin ruhunun şad olan məqamıdır,
Hər damla qanı belə torpağa salamıdır,
Yurdumuz qəhrəmanlar, igidlər məkanıdır,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

Həsrəti, ayrılığı öz haqqıyla pozur O,
Dönə-dönə qələbə müjdəsinə hazır O,
Tarixinin möhtəşəm tarixini yazır O,
Azərbaycan yaşayır!!! Yaşasın Azərbaycan!!!

***

Bütün dünyanın dilində hünərini danışdıran,
Yatıb qalan beyinləri düşünməyə çalışdıran,
Sən OĞULSAN.

Hamımızın ürəyinə ürəklə yol çəkdirmisən,
Bizə əyri baxanları dizi üstə çökdürmüsən,
Sən OĞULSAN.

Tək deyilsən, Ordun da var, səni sevən Xalqın da var,
Qələbələrə aparan əzmin də var, andın da var,
Sən OĞULSAN.

Bu müqəddəs torpaqları alacağıq dedin - aldın,
Düşmənləri Yurdumuzdan qovacağıq dedin - qovdun,
Sən OĞULSAN.

“Mən qaçqın deyiləm” - deyən yurddaşını sevindirən,
Ümidləri, arzuları bu gerçəkliyə döndərən,
Sən OĞULSAN.

Bu millət sənə inanır, əsl Vətən Övladısan,
Xalqın dostu, sirdaşısan, möhtəşəm tarix yazırsan,
Sən OĞULSAN.

Bir gözümüz ağlasa da, bir gözümüzü güldürən,
Bizim Qarabağımızdan düşmən izini sildirən,
Sən OĞULSAN.

Xalqın səni qucaqlayıb bağrına basmaq istəyir,
Hamı üçrəngli bayrağı Şuşadan asmaq istəyir,
Sən OĞULSAN.
OĞLUMUZSAN.

***

Kimi tüfəng, kimi ürək, kimi hirslə döyüşdədir,
Əsirlikdə olan torpaq əsgəriylə görüşdədir,
Ədalətin qələbəsi, zəfərləri yürüşdədir,
Vətən oğlu, igid əsgər, torpaqları al geri dön,
Bu millətin, bu Vətənin Qəhrənamı ol geri dön.

Ölkəmiz ayaq üstədi, ürəklər Yurdla döyünür,
Kiçikdən böyüyə kimi döyüş ruhunu geyinir,
Elə bir Ordumuz var ki, xalq öz Oğluyla öyünür,
Vətən oğlu, igid əsgər, qələbələr çal geri dön,
Bu millətin, bu Vətənin Qəhrəmanı ol geri dön.

Yumruq kimi sıxılaraq bir nöqtəyə vurduq artıq,
Düşmənlərin belini də bu hücumla qırdıq artıq,
Yurdumuza xor baxanın bağrını da yardıq artıq,
Vətən oğlu, igid əsgər, yurduna iz sal geri dön,
Bu millətin, bu Vətənin Qəhrəmanı ol geri dön.

İndi bu Ulu diyarın böyük imtahan günüdür,
Haqsızlığın körpüsünü, sədləri yıxan günüdür,
Qılıncların da qınından sıyrılıb çıxan günüdür,
Vətən oğlu, igid əsgər, bu tarixdə qal geri dön,
Bu millətin, bu Vətənin Qəhrəmanı ol geri dön.

Bu həyəcan, bu yüksəliş damarlarda qan deməkdir,
Hər bir qarış torpağımız canımızda can deməkdir,
Bu üsyanın özü, odu can Azərbaycan deməkdir,
Vətən oğlu, igid əsgər, sənə yaxşı yol, geri dön,
Bu millətin, bu Vətənin Qəhrəmanı ol geri dön.

Kimi tüfəng, kimi ürək, kimi hisslə döyüşdədir,
Əsirlikdə olan torpaq azadlıqla görüşdədir,
Ədalətin qələbəsi, zəfərləri yürüşdədir,
Vətən oğlu, igid əsgər, torpaqları al geri dön,
Bu millətin, bu Vətənin Qəhrəmanı ol geri dön.

Xanım İsmayılqızı


* * *

Min şəhər adı var dillər əzbəri,
Adların ən üstün adıdı Şuşa.
Musiqi notudur cüt hecasıyla: Şu-Şa
Dilimin şəhdidir, dadıdı Şuşa.

Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Biri beş edəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.

Qoynuna hər gələn yüz xəyal eylər,
Qıraqda qalanlar qeylü-qal eylər,
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

Rəşad Məcid



Məqsəd Nur

Ədəbi aranjiman dövrü

Təkcə musiqidə deyil, Ədəbiyyatda da yeni münasibətlər yaradır.

Musiqidə yeni aranjiman dövrü ətrafına milyonlarla insan yığıb. İçimizdəki səslər özümüzdən qaçıb oraya dolub. Rotot elə için-için oxuyur ki, bir müddət bu həzin melodiyalara “aşiq” olursan. O özü hər şeyi əzbərləyir, yenidən aranjiman edir, öz “daxili səsini” botuna (robot sözünün qısaldılmış forması, internet və ya kompüter sistemlərində müəyyən alqoritmlər əsasında yaradılmış, insan müdaxiləsi olmadan, avtomatlaşdırılmış tapşırıqları yerinə yetirən xüsusi proqram təminatı) yerləşdirir, əsər yaradır.

Əslində bu üsullar az qala ötən əsrin ortalarından baş qaldıran aranjiman dövrünün təkrarlanmasıdır. Bu dəfə onu insan yox, robot, Sİ (Süni İntellekt) həyata keçirir, hətta satışa çıxarıb yaxşıca mənfəət əldə edir.

Məsələn, amerikalı müəllif Cenifer Salay bu yaxınlarda ABŞ-da baş vermiş qəribə hadisədən bəhs edir: “2017-2024-cü illər arasında Şimali Karolina sakini Maykl Smit dünya nəhəngi olan məşhur musiqi platformasında minlərlə bot hesabı qeydiyyatdan keçirərək həmin botlara Sİ-dən istifadə etməklə hazırladığı yüz minlərlə mahnını yayımlamağı tapşırır. Bir qrup “fədakar” bot digər bir qrup “istedadlı” botun mahnılarını dinləyərək yayımlanan mahnılara görə Maykl Smitə 8 milyon dollar qazandırır... Bu yaxınlarda Maykla 18 ay həbs cəzası veriblər.... Amerika mədəniyyəti... innovasiyaya pərəstiş edir... Axı necə oldu ki, bu innovasiya deyilən nəsnə Amerikanın ən böyük reketinə çevrildi?”

“Aranjiman” (arranger-fr. və ya arranqieren-alm.) feildir, fransız və alman mənşəli ifadədir. Hazır musiqi əsərini ilkin formasından fərqli olaraq tərtib etmək, dəyişdirmək, uyğunlaşdırmaq mənasını verir.

Ümumiyyətlə, hazır musiqi, hazır əsər nədir, o necə yaranır, necə yaranmalı və nə cür müəyyənləşdirilməlidir? Bu da hipotetik sualdır. Aranjimanın sırf musiqiyə aid edilməsi isə mübahisə də doğura bilər. Belə ki riyaziyyatda olan “aranjeman” da elementlər çoxluğunda, müəyyən qaydaya uyğun olaraq, aparılan yerdəyişmə və düzülüş formalarını ifadə edə bilir. Hər şey riyaziyyatdırsa, Ədəbiyyat niyə olmasın?

Gərək, ədəbi tənqidimiz yeni bir Ədəbiyyat termini də yaratsın. Çünki Sİ və Robotlar iş başındadır. Və bu hər nədirsə, “imitasiya” (yamsılama, bənzətmə), hətta təsirlənmə də deyil. Kitab sənayesinin gələcəyini müəyyənləşdirə bilər. Əsərlə imitasiyanın sərhədlərini qarışdırar. Təkcə ağı-qaradan ayırmaq üçün yox, təsnifatlaşma naminə ədəbi tənqid termini tapılmamalıdırmı? “İmitasiya” özünü doğrultmadı, məsələn, “litaranjeman” olsun?

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4286
Sifariş: 1480
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova